HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 39 (779) ■ 7 oktyabr 2015 www.vergiler.az Qiymәti: 40 qәp.

## Azərbaycan Prezidenti İlham Əliyev Ucar rayonunda olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 6-da Ucar rayonuna səfərə gəlib. Dövlətimizin başçısı əvvəlcə Ucar şəhərinin mərkəzində ucaldılmış ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül dəstəsi qoyub. Bildirilib ki, ulu öndərin abidəsinin ucaldıldığı ərazidə son vaxtlar geniş abadlıq işləri görülüb, yaşıllıq zolaqları salınıb. Bura rayon sakinlərinin ən sevimli istirahət mərkəzlərindən birinə çevrilib.



Sonra «Ucar Aqro» MMC-nin quşçuluq sənaye kompleksi ilə tanış olan Azərbaycan Prezidentinə məlumat verilib ki, müəssisənin illik quş əti istehsalı gücü 9,5 min ton təşkil edir. Müəssisədə 65 çeşiddə istehsal edilən quş əti məhsulları «Mərcan» brendi ilə təqdim olunur. Qeyd edilib ki, əsas istehsal prosesi beş sahədə - kəsim, şoklama, soyutma, bölünmə və qablaşdırma sahələrində aparılır .

Prezident İlham Əliyev Ucar Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında da iştirak edib. Xəstəxana kompleksi Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunub. Dövlətimizin başçısı tibb ocağında yaradılan şəraitlə tanış olub. Burada ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkəmizdə səhiyyənin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotostendlər quraşdırılıb. Kompleksə cərrahiyyə, terapiya, pediatriya, reanimasiya, ginekologiya, reanimatologiya, diaqnostika, fizioterapiya, qəbul şöbələri, konsultativ poliklinika, perinatal mərkəz, laboratoriya, təcili tibbi yardım stansiyası və inzibati korpus daxildir. Xəstəxana 118 çarpayılıqdır. Şöbələrin hamısı ən müasir tibbi avadanlıqla təmin olunub.

Səfər çərçivəsində dövlətimizin başçısı rayonda fəaliyyət göstərən «Fermer» yol-istirahət mərkəzində yaradılan şəraitlə də tanış olub və Gənclər Mərkəzinin açılışında iştirak edib. Məlumat verilib ki, 3 mərtəbəli binanın tikintisinə bu ilin əvvəlində başlanıb və inşaat işləri oktyabr ayında başa çatdırılıb. Mərkəz respublikada ən böyük gənclər mərkəzlərindən biridir. Mərkəzin yaradılmasında əsas məqsəd yeniyetmələr arasında elmi-texniki biliklərin təbliği, onların elmi-yaradıcı təşəbbüslərinin artırılması, bu sahədə istedadlı gənclərin üzə çıxarılmasıdır.

Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyasının Ucar rayon təşkilatının yeni inzibati binasının açılışında da iştirak edib. Dövlətimizin başçısına məlumat verilib ki, partiyanın inzibati binasının tikintisi yüksək standartlara uyğun həyata keçirilib. Ümumi sahəsi 600 kvadratmetr olan bina müasir inventar və avadanlıqla təchiz olunub. Binanın 110 nəfərlik akt zalında partiyanın fəaliyyəti ilə bağlı müxtəlif tədbirlər keçirilə bilər. İnzibati otaqlarda səmərəli fəaliyyət üçün hərtərəfli şərait yaradılıb.

Həmin gün Prezident İlham Əliyev Ucar Tarix-Diyarşünaslıq Muzeyi üçün inşa olunan yeni binanın açılışında iştirak edib. Məlumat verilib ki, ümumi sahəsi 650 kvadratmetr olan bina bütün lazımi kommunikasiya xətləri və müvafiq avadanlıqla təchiz olunub. Qədim tariximizin və mədəni irsimizin öyrənilməsi, gələcək nəsillərə çatdırılması baxımından Ucar Tarix-Diyarşünaslıq Muzeyi mühüm əhəmiyyətə malikdir. Muzeydə həm ölkəmizin, həm də Ucarın tarixini əks etdirən və turistlər üçün böyük maraq doğuran çoxlu sayda eksponat var. Bu eksponatlar bölgənin tarixini öyrənmək baxımından olduqca əhəmiyyətlidir.

Oktyabrın 6-da Ucara səfərini başa çatdıran Prezident ilham Əliyev həmin gün Göyçay rayonuna gəlib.

## Sosial layihələr uğurla icra olunur

*Oktyabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Azərsun Holdinq» Şirkətlər Qrupunun «Xəyal Adası» layihəsi çərçivəsində SABIS Sun Beynəlxalq məktəb kompleksinin və Qolf klubunun açılışında iştirak ediblər.*

Dövlətimizin başçısına məlumat verilib ki, məktəb kompleksində uşaq bağçası, SABIS Sun Beynəlxalq məktəbi və inzibati bina inşa olunub. Binanın foyesində ulu öndər Heydər Əliyevin təhsil sahəsinə göstərdiyi diqqəti əks etdirən fotolardan ibarət stend yaradılıb. Müəssisədə müəllim kollektivinin fəaliyyəti üçün ən yüksək şərait yaradılıb. Məktəb kompleksinin növbəti mərhələləri üzrə də inşaat işləri uğurla davam etdirilir. Bu kompleks ən müasir tələblərə cavab verməklə təlim-tədris üçün bütün zəruri avadanlıqla təchiz ediləcək.



Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kompleksin uşaq bağçasında yaradılan şəraitlə maraqlanıblar. Binanın foyesində ulu öndər Heydər Əliyevin müxtəlif illərdə uşaqlarla bağlı keçirilən tədbirlərdə iştirakını əks etdirən fotostend yaradılıb. Fotostenddə uşaqların həm fiziki, həm də mənəvi cəhətdən sağlam vətəndaş kimi formalaşması sahəsində Prezident İlham Əliyevin rəhbərliyi altında görülən işlər və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın gələcəyimiz olan körpələrə qayğısını əks etdirən fotolar da yer alıb.

Sonra dövlətimizin başçısı və xanımı SABIS Sun Beynəlxalq məktəbində yaradılan şəraitlə tanış olublar. Bu təhsil ocağı bütün siniflər üzrə təlim-tərbiyə işinin müasir standartlar səviyyəsində qurulması baxımından hər cür şəraitə malikdir. Otaqların hamısı zəruri avadanlıq və dərs vəsaitləri ilə təchiz edilib. Dördmərtəbəli məktəbdə təhsil sahəsində keyfiyyəti ilə fərqlənən «SABIS» sistemi tətbiq olunur. Bu təhsil sistemi fəaliyyət göstərdiyi dövrdə təkmilləşdirilmiş əhatəli tədris proqramı ilə seçilir. Dünyanın 16 ölkəsində 60 məktəbi fəaliyyət göstərən «SABIS» sistemi üzrə 65 min şagird təhsil alır. Bütün bunlar bir daha göstərir ki, Azərbaycanda təhsil sahəsində əldə olunan inkişaf beynəlxalq təcrübəni də özündə ehtiva edir.

Daha sonra dövlətimizin başçısı və xanımı «Xəyal Adası»nın Qolf klubuna gəliblər. Qolf klubu binasının interyeri müasirliyi ilə diqqəti cəlb edir. Binada qolf oyunçularının hazırlaşması, istirahət etməsi, komanda ilə birlikdə əylənməsi üçün bütün şərait yaradılıb. Sahəsi 5 min kvadratmetr olan Qolf klubunun yüksək zövqlə və keyfiyyətlə qurulması bir daha layihənin uğurunu nümayiş etdirir.

Qolf klubunun binasında Prezident İlham Əliyev bu idman növündə oynamağa gələn xarici ölkələrin nümayəndələri ilə görüşüb. Daha sonra Prezident İlham Əliyev Qolf klubunun dünyanın müxtəlif ölkələrindən olan üzvləri ilə və Qolf Akademiyasında təhsil alanlarla görüşüb. Sonra Kolin Montqomerie Prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim edib.

Prezident İlham Əliyev layihə çərçivəsində inşa edilən villada yaradılan şəraitlə də maraqlanıb. Dövlətimizin başçısına məlumat verilib ki, «Xəyal Adası»nda 2100 mənzil, fərqli ölçülərdə və konseptlərdə 300 villa inşa olunur. Onların hamısı müasir tələblərə cavab verir və yüksək keyfiyyətləri ilə seçilir. Buradakı villaların bir hissəsi artıq hazırdır, digərlərinin inşası davam edir.

Beləliklə, bu cür mühüm infrastruktur layihələrinin icrası Azərbaycan dövlətinin həyata keçirdiyi sosial siyasətin ardıcıl və məqsədyönlü olduğunu bir daha aydın nümayiş etdirir. Bu işlər sübut edir ki, bütün dünyada hökm sürən iqtisadi böhrana baxmayaraq, dövlətimizin həyata keçirdiyi siyasət nəticəsində nəzərdə tutulan bütün layihələr uğurla icra olunur.

## Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı tarixi köklərə söykənir

Prezident İlham Əliyev oktyabrın 5-də Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Azərbaycan-Türkiyə əməkdaşlığının bütün sahələrdə olduğu kimi, hərbi sahədə də uğurla inkişaf etdiyini və daim möhkəmləndiyini deyib. Hərbi sahədə əlaqələrimizin çox yaxşı tarixə malik olduğunu bildirən Prezident İlham Əliyev ölkəmizin müstəqilliyi dövründə əməkdaşlığımızın daha da genişləndiyini vurğulayaraq son illər həm Azərbaycanda, həm də Türkiyədə keçirilən birgə hərbi təlimlərin əhəmiyyətini qeyd edib. Azərbaycan ilə Türkiyənin dünya miqyasında ən yaxın dövlətlər olduğunu deyən Prezident İlham Əliyev ölkələrimizin bir-birini bütün məsələlərdə daim dəstəkləməsinin önəmini vurğulayıb. Dövlətimizin başçısı Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı əməkdaşlığımızın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında səmərəli fikir mübadiləsi aparılacağına əminliyini ifadə edib.

Hulusi Akar qardaşlıq təməli üzərində həyata keçirilən birgə təlimlərin böyük əhəmiyyət daşıdığını qeyd edərək həm Türkiyədə, həm də Azərbaycanda keçirilən təlimlər zamanı müxtəlif sahələr üzrə nümunəvi iş birliyinə nail olunduğunu vurğulayıb. Ölkələrimiz arasında ikitərəfli münasibətlərə toxunan türkiyəli general bu əlaqələrin dünyada misli olmadığını və böyük önəm daşıdığını deyib. O, Türkiyə və Azərbaycan prezidentlərinin rəhbərliyi ilə bu əlaqələrin qarşıdakı illərdə daha da genişləndiriləcəyini əminliklə qeyd edib.

## İkitərəfli münasibətlər strateji xarakter daşıyır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Paskal Mönyeni diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

Ölkəmizdən və xalqımızdan xoş təəssüratla ayrıldığını deyən səfir Paskal Mönye gələcək fəaliyyəti dövründə də əlaqələrimizin genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib. Səfir Prezident İlham Əliyevin və Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dəstəyi sayəsində Fransa ilə Azərbaycan arasında əlaqələrin daha da gücləndirildiyini vurğulayıb.

Paskal Mönyenin Azərbaycan-Fransa ikitərəfli münasibətlərinin inkişafına verdiyi töhfəni qeyd edən dövlətimizin başçısı onun ölkəmizdəki diplomatik fəaliyyəti dövründə əməkdaşlığımızın yüksək səviyyəyə qalxdığını deyib. İkitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin və eləcə də Heydər Əliyev Fondunun bu istiqamətdəki fəaliyyətinin önəmini vurğulayan Prezident İlham Əliyev əlaqələrimizin geniş sahələri əhatə etməsindən və əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən enerji, texnologiya, biznes, mədəniyyət və digər sahələrdə strateji tərəfdaşlıq xarakteri daşımasından məmnunluğunu ifadə edib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb. Dövlətimizin başçısı fransalı diplomata gələcək fəaliyyətində uğurlar arzulayıb.

### BU NÖMRƏMİZDƏ

ONLAYN TƏLİM 2

VERGİDƏN YAYINANLARA QARŞI TƏDBİRLƏR DAHA DA SƏRTLƏŞDİRİLİR 3

AZƏRBAYCANDAKI MAKROİQTİSADİ MÜHİT YÜKSƏK QİYMƏTLƏNDİRİLİR 4

VERGİ SİYASƏTİNİN STİMULLAŞDIRICI OLMASI DAHA SƏMƏRƏLİDİR 5

# Vergilər Nazirliyində struktur dəyişiklikləri

Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında verilmiş tapşırıqların icrası, eləcə də Vergilər Nazirliyinin Kollegiyası tərəfindən qəbul edilmiş qərarların və vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri Fazil Məmmədovun əmri ilə təsdiq olunmuş Tədbirlər Planından irəli gələn məsələlərin həll edilməsi istiqamətində Vergilər Nazirliyi tərəfindən tədbirlər davam etdirilir.

İndiyədək görülən işlərin davamı olaraq, vergi orqanları tərəfindən nəzarət funksiyalarının həyata keçirilməsi mexanizminin müasir tələblərə uyğun daha da təkmilləşdirilməsi, vergilərin yığılmasında təşkilati işlərin gücləndirilməsi, əhalidə vergi mədəniyyəti və intizamının formalaşdırılması sahəsində görülən tədbirlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə vergilər nazirinin 1 oktyabr 2015-ci il tarixli əmri ilə Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamenti ləğv edilərək Bakı Vergilər Departamentinə birləşdirilmiş, departamentin tərkibində Xüsusi rejimli vergi xidməti idarəsi yaradılmışdır.

# Qanunu pozanlara qarşı operativ tədbirlər görülür

2015-ci ilin 9 ayı ərzində əhali ilə nağd pul hesablaşmalarının aparılması qaydalarına riayət olunması, nəzarət-kassa aparatlarından istifadə, vergi orqanlarında uçota durmadan fəaliyyət göstərən vergi ödəyicilərinin aşkarlanması və s. kimi operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə vergi orqanları tərəfindən keçirilmiş tədbirlər zamanı 52953 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkarlanmışdır.

Araşdırma zamanı 9397 vergi ödəyicisi tərəfindən qanunla nəzərdə tutulmayan valyutanın ödəniş vasitəsi kimi qəbul olunduğu, valyutanın ticarət, iaşə və xidmət müəssisələrində qanunsuz olaraq alınıb-satıldığı və ya dəyişdirildiyi, 2338 vergi ödəyicisinin vergi orqanlarında uçota durmadan fəaliyyət göstərdiyi, 6893 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq (lisenziya) almadan məşğul olduğu aşkar edilmişdir. 2524 vergi ödəyicisi tərəfindən 4202 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb olunduğu, 2539 vergi ödəyicisi tərəfindən fərqlənmə nişanı olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşındığı, 1110 vergi ödəyicisində aksiz markaları ilə müvafiq qaydada markalanmamış mallar olduğu müəyyən edilmişdir.

Aşkar olunmuş nöqsanlarla bağlı müvafiq tədbirlər həyata keçirilmişdir.

# Dövlət büdcəsi müzakirə olunub

Milli Məclisin İqtisadi siyasət, Aqrar siyasət, Təbii ehtiyatlar və energetika, Sosial siyasət, Təhlükəsizlik və müdafiə komitələrinin 2016-cı ilin dövlət büdcəsi layihəsinin müzakirəsi üzrə birgə iclasında çıxış edən maliyyə naziri Samir Şərifov bildirib ki, layihənin hazırlanması dünya iqtisadiyyatında baş verən qeyri-sabitlik şəraitində həyata keçirilib: «İlin əvvəlindən dünya maliyyə bazarlarında qeyri-sabitlik müşahidə olunur, xammal resurslarının qiymətləri ucuzlaşır. Bütün bunlar gəlirlərin azalmasına, milli valyutaların ucuzlaşmasına, dövlət büdcələrinin kəsirinin artmasına və xammal ixrac edən ölkələrin tədiyyə balansında problemlərə gətirib çıxarır».

Nazir qeyd edib ki, bütün bu proseslərlə əlaqədar olaraq, gələn il, eləcə də 2017-2019-cu illərdə bəzi sahələrdə vergi və gömrük güzəştlərinə yenidən baxılması nəzərdə tutulur: «Bəzi hallarda bu vergi güzəştləri məhdudlaşdırılacaq, bəzi hallarda isə ləğv ediləcək. Bununla yanaşı, Azərbaycan hökuməti tikinti, iaşə və ticarət sahələrində vergi tutulmasını sadələşdirməyi planlaşdırır ki, bu da sahibkarlığın inkişafına əlavə təkan verəcək və nəticədə dövlət büdcəsinin gəlirlərinin artmasına gətirib çıxaracaq».

**RƏŞAD**

# Kimin sözü varsa…

Vətəndaş müraciətlərinə həssaslıqla yanaşmaq, vətəndaşla dövlət qurumu arasında qarşılıqlı münasibətlər Azərbaycanın dövlət idarəetmə siyasətində mühüm yer tutur və bu məsələ daim diqqət mərkəzində saxlanılır.

Vergilər Nazirliyində vətəndaş müraciətlərinə vergi yığmaq qədər ciddi əhəmiyyət verilir. Nazirliyin internet səhifəsi vasitəsilə istifadəçilərə vergi məsələləri ilə bağlı təklif, ərizə və şikayətlə müraciət etmək imkanı yaradılıb. Vətəndaşlar internet üzərindən vergilər nazirinə onlayn müraciət edə, vergi orqanı əməkdaşının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat verə, müraciətlərini Vergi Apelyasiya Şurasına çatdıra bilirlər. Qeyd edək ki, www.taxes.gov.az və www.e-gov.az saytları üzərindən göstərilən interaktiv səciyyəli bu xidmətlər ödənişsiz həyata keçirilir.

***Vergilər nazirinə onlayn müraciət***

Bu xidmət fiziki və hüquqi şəxslərə vergi orqanlarının səlahiyyətlərinə aid məsələlərlə bağlı vergilər nazirinə onlayn müraciət etmək imkanı yaradır. Xidmətin təşkili vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsinə yönəldilib.

Elektron xidmətdən istifadə üçün təqdim olunmuş forma üzrə müvafiq qrafalarda şəxsiyyəti təsdiq edən sənədin seriya və nömrəsini, eləcə də digər lazımi məlumatları qeyd etməli, daha sonra «Davam et» düyməsini sıxmalıdır. Bundan sonra açılacaq yeni pəncərədə istifadəçi tərəfindən forma üzrə müəyyən olunmuş müvafiq qrafalar doldurulur və «Göndər» düyməsi sıxılır.

Müraciət formasının məlumatları əks-əlaqə vasitəsilə onlayn rejimdə qəbul edilir. Sorğunun yerinə yetirilməsindən imtina halları isə vacib xanalardan hər hansı biri doldurulmadıqda elektron xidmətin göstərilməsindən imtina olunur.

***Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumatın onlayn verilməsi***

Bu xidmət vasitəsilə fiziki və hüquqi şəxslər nazirliyin daxili nəzarət strukturuna onlayn müraciət edə bilirlər və müraciət edən şəxsə araşdırmanın nəticəsinə dair cavab məktubu göndərilir.

Elektron xidmətin göstərilməsi üçün təqdim olunmuş forma üzrə müvafiq qrafalarda şəxsiyyəti təsdiq edən sənədin seriyası, nömrəsi və müvafiq məlumatlar qeyd olunur və «Davam et» düyməsi sıxılır. Bundan sonra açılan yeni pəncərədə formadakı qrafalar istifadəçi tərəfindən doldurularaq «Göndər» düyməsi sıxılır. Müraciət formasının məlumatları əks-əlaqə vasitəsilə onlayn rejimdə qəbul edilir. Vacib xanalardan hər hansı biri doldurulmadıqda elektron xidmətin göstərilməsindən imtina olunur. Forma istifadəçi tərəfindən doldurulub onlayn rejimdə göndərildikdən sonra müraciət dərhal Vergilər Nazirliyinin Aparatına daxil olur. Müraciətin araşdırılmasının nəticəsinə dair cavab məktubu Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) vasitəsilə qeydiyyata alınaraq müraciət müəllifinin e-mail ünvanına göndərilir.

***Vergi Apelyasiya Şurasına müraciətin onlayn təqdim edilməsi***

Fiziki və hüquqi şəxslər vergi orqanlarının qəbul etdiyi inzibati aktlarla bağlı verdikləri ərizə və ya şikayətlərin nəticəsi üzrə Vergilər Nazirliyi Aparatının struktur vahidləri tərəfindən qəbul edilmiş inzibati qərarlardan təkrar şikayətlə Vergi Apelyasiya Şurasına onlayn müraciət edə bilərlər. Bu elektron xidmət vergi orqanlarının fəaliyyətində şəffaflığın təmin olunmasına, habelə məhkəməyə qədər mübahisələrin obyektiv şəkildə həll edilməsinə zəmin yaradır.

«Vergi Apelyasiya Şurasına müraciətin onlayn təqdim edilməsi» xidmət növü seçildikdən sonra açılmış pəncərədəki qrafalara şəxsiyyəti təsdiq edən sənəddəki zəruri məlumatlar daxil edilir və «Davam et» düyməsi sıxılır. Açılacaq yeni pəncərədə müvafiq qrafalar doldurulduqdan sonra «Göndər» düyməsi sıxılır. Müraciət formasının məlumatları onlayn rejimdə həyata keçirilir.

Vergi Apelyasiya Şurası tərəfindən icraata qəbul olunanlar:

- korrupsiya hüquqpozma halları barədə müraciətlər;
- eyni şəxs tərəfindən eyni predmet üzrə verilmiş və bununla bağlı Vergi Apelyasiya Şurasının qərarı olan müraciətlər.

**AYTƏN**

# Vergi işçilərinin etik davranış məsələləri

Vergilər Nazirliyi öz əməkdaşlarının etik davranış qaydalarına əməl etmələrinə, vergi ödəyicilərinin və vətəndaşların bu məsələ ilə bağlı müraciətlərinin araşdırılmasına xüsusi diqqət yetirir.

2015-ci ilin 9 ayı ərzində nazirliyə «Vergi işçisinin etik davranış kodeksi»nin tələblərinin pozulması (vergi orqanlarının vəzifəli şəxslərinin hərəkəti, yaxud hərəkətsizliyi) ilə əlaqədar 360, korrupsiya hüquqpozmaları ilə əlaqədar 146 şikayət daxil olmuşdur.

Həmin şikayətlərin araşdırılması nəticəsində «Vergi işçisinin etik davranış kodeksi»nin tələblərini pozmuş 11 əməkdaşın vergi orqanlarında xidmətinə xitam verilmiş, 6 əməkdaşın xüsusi rütbəsi bir pillə aşağı salınmış, 7 əməkdaş aşağı vəzifəyə keçirilmiş, 413 əməkdaşa töhmət, 133 əməkdaşa isə şiddətli töhmət verilmişdir.

Doqquz ay ərzində bilik və məlumatlılıq səviyyəsinin artırılması məqsədilə 1100 vergi xidməti əməkdaşı korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması və məlumat azadlığı məsələləri mövzusunda treninqlərə cəlb edilmişdir.

# Onlayn təlim

Vergilər Nazirliyinin elektron kitabxanasının «Onlayn təlim» sistemi ilə təlimlərin təşkili qaydaları» vergi əməkdaşlarının təlim tələbatlarının elektron təhsil texnologiyaları əsasında qarşılanması, təlimlərin əhatə dairəsinin daha da genişləndirilməsi, əməkdaşların iş yerindən ayrılmadan və səmərəli şəkildə təlimləri izləmək imkanının yaradılması məqsədilə hazırlanıb.




Bu günlərdə Vergilər Nazirliyində keçirilən ilk onlayn təlimdə 40-dan çox vergi orqanı əməkdaşı iştirak edib. Nazirliyin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəis müavini Mahəddin Namazov bildirib ki, «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasında ölkəmizin bütün dövlət orqanları, o cümlədən Vergilər Nazirliyi qarşısında çox vacib vəzifələr qoyulub. Bu vəzifələrdən biri də dövlət orqanlarında müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, idarəçilikdə metod və mexanizmlərin təkmilləşdirilməsi və innovasiya fəaliyyətinə ciddi önəm verilməsidir: «Bu məqsədlə işçilərin bilik və bacarıqlarının artırılması üçün təlimin idarə edilməsində İKT-nin tətbiqi çox önəmlidir. Son dövrlərdə Vergilər Nazirliyində bu sahədə bir sıra layihələr hazırlanıb həyata keçirilməkdədir».

«Onlayn təlim»in mühüm əhəmiyyətə malik olduğunu qeyd edən M.Namazov onun ənənəvi təlimlə müqayisədə bir çox üstünlüklərini diqqətə çatdırmışdır: «Ənənəvi təlimdən fərqli olaraq, burada bir çox problemlər aradan qalxır, vaxt və maliyyə itkisinin qarşısı alınır. Uzaqda olan vergi əməkdaşlarının təlimin keçirildiyi ünvana gəlmək problemi olmur. Bundan əlavə, xarici ölkələrin mütəxəssislərini də təlimlərə cəlb etmək mümkündür».

Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin rəisi Telman Hüseynli iştirakçıları «Onlayn təlim» sisteminin istifadəçi interfeysindən istifadə qaydaları barədə məlumatlandırmışdır. Qeyd etmişdir ki, «Onlayn təlim»də iştirak üçün əməkdaşlar öncədən təlimin sonuna kimi virtual tədris otağını tərk etməməyə, fəallıq göstərməyə, suallara dərhal cavab verməyə və təlim qaydalarına əməl etməyə hazır olmalıdırlar. Prosesə nəzarət edildiyi üçün təlimə qoşulmayan və ya təlimdən səbəbsiz yerə ayrılan əməkdaşları müəyyənləşdirmək mümkündür. İdarə rəisi onu da əlavə etmişdir ki, hər bir təlim vergilər nazirinin əmri ilə təsdiq olunur və məcburi xarakter daşıyır: «Onlayn təlim» sistemi müasir innovativ texnologiya prinsipləri əsasında həyata keçirilir. Burada təlim iştirakçıları üçün hər cür zəruri şərait yaradılmışdır. İştirakçıların təlim materialları ilə tanış olmaları üçün materiallar 15 gün əvvəl virtual tədris otağına daxil edilir və onlara mövzunu forumda müzakirə etmək imkanı verilir. Sonda iştirakçılar məmnunluğun qiymətləndirilməsi anketini doldurmaqla təlimi qiymətləndirə bilirlər».

Qeyd edilmişdir ki, mövcud qaydalarda müəyyən edilən hallar istisna olmaqla, Vergilər Nazirliyinin funksional sahələri üzrə qısamüddətli təlimlər «Onlayn təlim» sistemi ilə təşkil olunacaq. Məqsəd səmərəliliyin artırılması və təlim proseslərinin əhatə dairəsinin genişləndirilməsidir.

Sonra Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin Xarici ölkələrin vergi sisteminin tədiqiqi şöbəsinin rəisi Vüsal Şıxəliyev «Onlayn təlim» sisteminin yaranmasını zərurətə çevirən amillər barədə məluat vermişdir. İnsan resursları idarəsinin Təhsil və inkişaf şöbəsinin rəisi Ceyhun Mehdiyev «Onlayn təlimlərin keçirilməsi üzrə əsas vərdişlər», Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin Xarici ölkələrin vergi sisteminin tədqiqi şöbəsinin baş dövlət vergi müfəttişi Zaur Cəfərli isə «Onlayn təlim iştirakçılarının vəzifə və hüquqları» mövzusunda iştirakçılarla söhbət aparmışdır.

**A.NƏBİYEVA**

# «Vətəndaşların müraciətləri haqqında» qanun layihəsi qəbul edildi

Sentyabrın 30-da Milli Məclisin payız sessiyasının ilk plenar iclasında parlament üzvləri, digər qanunvericilik aktları ilə yanaşı, «Vətəndaşların müraciətləri haqqında» qanun layihəsini üçüncü oxunuşda müzakirə ediblər. Bu qanun Azərbaycan Respublikası vətəndaşlarının müraciət etmək hüququnun həyata keçirilməsi ilə bağlı hüquqi münasibətləri tənzimləyir, vəzifəli şəxslərin müraciətlərə baxması qaydasını müəyyən edir. On yeddi maddədən ibarət layihədə vətəndaşların müraciətlərinə baxılmasının əsas prinsipləri, baxılma müddəti, vətəndaşların qəbul edilməsi qaydası və digər məsələlər öz əksini tapır. Burada vətəndaşların müraciət etmək hüququnun həyata keçirilməsi ilə bağlı hüquqi münasibətləri tənzimləyən, vəzifəli şəxslərin müraciətlərə baxması qaydasını müəyyənləşdirən 10-dan çox müraciət forması var. Layihədə qeyd olunur ki, bu qanunun tələblərinin pozulmasına görə şəxslər Azərbaycan Respublikasının Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrinə uyğun məsuliyyət daşıyırlar.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

**R.SADIQOV**

# İdxal əməliyyatları 5,09% artıb

Bu ilin yanvar-avqust aylarında ölkədə ticarət əməliyyatlarının həcmi 14.082.176,75 min ABŞ dolları məbləğində olub. Dövlət Gömrük Komitəsindən bildirilib ki, bunun 5.898.689,99 min dollarını idxal əməliyyatları, 8.183.486,76 min dollarını isə ixrac əməliyyatları təşkil edib.

Yanvar-avqust aylarında Azərbaycanda idxal əməliyyatları 2014-cü ilin müvafiq dövrünə nisbətən 5,09% artıb. İdxal əməliyyatlarının 1.112.504,83 min dolları dövlət sektorunun, 4.563.718,25 min dolları isə özəl sektorun payına düşür. Ölkədə ixrac əməliyyatlarının 7.289.342,37 min dolları dövlət sektoru, 782.829,52 min dolları isə özəl sektor üzrə həyata keçirilib.

# Vergidən yayınanlara qarşı tədbirlər daha da sərtləşdirilir



*Vergilər nazirinin 15 sentyabr 2015-ci il tarixli əmri ilə Vergilər Nazirliyinin aparatının, Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması, Xüsusi Rejimli Vergi Xidməti və Bakı Vergilər departamentlərinin, Vergilər Nazirliyinin ərazi vergilər departamentləri və idarələrinin, rayon vergilər şöbələrinin strukturunda bəzi dəyişikliklər edilib.*
*Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin rəisi Zeynalabdin Məmmədzadənin «Vergilər» qəzetinə müsahibəsi nazirlikdə həyata keçirilən islahatlar, vergi borclarının alınması sahəsində son dövrlərdə görülən işlər barədədir.*

***Zeynalabdin müəllim, vergi borclarının alınması sahəsində aparılan dəyişikliklər hansı zərurətdən irəli gəlib?***

- Nazirlər Kabinetinin 2015-ci il iyul ayının 13-də ölkə Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilmiş, 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında verilmiş tapşırıqlar vergi orqanları qarşısında mühüm vəzifələr müəyyənləşdirib. Həmin tapşırıqların icrası məqsədilə Vergilər Nazirliyində geniş tərkibdə Kollegiya iclası keçirilərək bir sıra mühüm qərarlar qəbul edilib, ölkə Prezidenti tərəfindən verilmiş tapşırıqların planlı və sistemli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə vergilər naziri tərəfindən Tədbirlər Planı təsdiq olunub.

Vergilər Nazirliyinin strukturunda aparılmış son dəyişikliklər, ilk növbədə, bu tapşırıqların və həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi, vergi inzibatçılığı sahəsində, xüsusilə vergi borclarının idarə olunması sahəsində yeni yanaşmaların müəyyən edilməsi ilə bağlıdır. Bu dəyişikliklər vergi hüquqpozmalarına qarşı mübarizə sahəsində fəaliyyətin daha da təkmilləşdirilməsi, təhqiqat, istintaq və əməliyyat-axtarış fəaliyyətində operativliyin artırılması, istintaq prosesinə nəzarətin gücləndirilməsi, nəticə etibarilə dövlət büdcəsinə vergi daxilolmalarının artırılması məqsədi daşıyır.

***Vergi borclarının alınması prosesində hansı yeniliklər gözlənilir?***

- Struktur dəyişiklikləri nəticəsində Vergilər Nazirliyinin Vergi borclarının alınması işinin təşkili idarəsinin bazasında Cinayət xarakterli vergi hüquqpozmalarının təhlili və vergi borclarının alınması işinin təşkili Baş İdarəsi yaradılıb. Baş İdarənin təşkili müvafiq sahədə fəaliyyət göstərən struktur vahidlərinin funksiyalarının genişləndirilməsi ilə yanaşı, cinayət tərkibi yaradan vergi borclarının yaranması prosesinə nəzarəti gücləndirməyə, vergi hüquqpozmaları sahəsində daha dərin təhlillər aparmağa istiqamətlənib.

Digər tərəfdən, Vergilər Nazirliyi yanında Xüsusi Rejimli Vergi Xidməti Departamenti və Bakı Vergilər Departamentinin, eləcə də ərazi vergi orqanlarının tərkibində fəaliyyət göstərən vergi borclarının alınması strukturları ləğv edilərək, onların əvəzinə Vergilər Nazirliyi yanında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin tərkibində Vergi borclarının məcburi alınması idarəsi yaradılıb. Bu idarə vergi borclarının alınması ilə praktiki məşğul olan struktur vahididir və onun hər bir ərazi vergi orqanı üzrə 14 şöbəsi yaradılıb. Bu şöbələr yerlərdə fəaliyyət göstərəcək, lakin birbaşa Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə tabe olacaq.

***Hamını maraqlandıran əsas sual budur ki, bundan sonra hansı addımlar atılacaq?***

Ümumiyyətlə, vergi borclarının alınması prosesinin səmərəliliyinin artırılması, bizim fikrimizcə, ilk növbədə borclu vergi ödəyiciləri ilə işə çox ciddi yanaşılması ilə bağlıdır. Vergi ödəyicisində borc yaranmasının sonradan hansı xoşagəlməz nəticələr verə biləcəyi nəzərə alınmalıdır. Dünya təcrübəsi göstərir ki, böyük həcmdə vergi borclarının yaranmaması üçün prosesə erkən müdaxilə olunmalıdır. Çünki borcun yaranma müddətindən nə qədər uzun vaxt keçirsə, onun alınması prosesi də bir o qədər çətinləşir. Vergi ödəyicilərini ilkin mərhələdə müxtəlif kanallar vasitəsilə məlumatlandırmaqla və qabaqlayıcı tədbirlər həyata keçirməklə borcların məbləğinin artmasının qarşısını almaq mümkündür.

Bu baxımdan, Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamenti cinayət tərkibi yaradan vergi borcları haqqında materiallar istintaq və təhqiqat strukturlarına daxil olduqdan sonra deyil, hər bir borcun yarandığı ilk gündən məşğul olmağa başlayacaq. Bu, qabaqlayıcı addımdır. Yəni biz vergi ödəyicisi ilə onun bu və ya digər səbəbdən yaranmış faktiki borcla üz-üzə qaldıqdan sonra deyil, daha əvvəl işləməyə başlayacağıq ki, əsas vergi borclarının artmasının, faiz və cərimələrin hesablanmasının qarşısı mümkün qədər alınsın. Məqsəd cinayət tərkibi yaradan vergi borcları ilə bağlı materialların sayının əsaslı şəkildə azaldılmasına, borclu vergi ödəyicilərində məsuliyyət hissinin artırılmasına nail olmaqdır.

*Məqsəd cinayət tərkibi yaradan vergi borcları ilə bağlı materialların sayının əsaslı şəkildə azaldılmasına, borclu vergi ödəyicilərində məsuliyyət hissinin artırılmasına nail olmaqdır*

***Borcların yaranma səbəbləri əsasən nə ilə bağlıdır?***

- Təcrübə göstərir ki, vergi ödəyicilərinin büdcə qarşısındakı öhdəliklərini tam və vaxtında icra etməmələrinin səbəbləri müxtəlifdir. Bunların sırasında dövlət büdcəsinə yaranmış öhdəliyin vergi ödəyicisi tərəfindən vaxtında icra edilməyərək vəsaitlərin başqa istiqamətlərə yönəldilməsi və vergi ödəyicisinin maliyyə çətinliyinin olması əsas səbəblər kimi özünü daha çox göstərir. Bu baxımdan, vergi borclarının alınması prosesi hər bir borclu vergi ödəyicisinə ayrıca yanaşma tələb edir.

Borcların və onların alınmasına cəlb olunan resursların daha səmərəli idarə edilməsi baxımından, borclu ödəyicilərlə iş onların risk kateqoriyaları üzrə qruplaşdırılması yolu ilə aparılır. Vergilər Nazirliyi bu sahədə Avropanın mütərəqqi təcrübəsindən yararlanır və informasiya texnologiyalarının geniş tətbiqi ilə yanaşı, bir sıra inkişaf etmiş ölkələrin vergi administrasiyaları və borcların yığılması ilə məşğul olan kollektor şirkətlərinin borclu ödəyicilərlə iş prosesində istifadə etdiyi səmərəli mexanizmləri də tətbiq edir. Dövlət büdcəsinə borcu olan ödəyicilərin öz öhdəliklərini vaxtında və tam həcmdə yerinə yetirməsinin təmin edilməsi vasitəsi kimi borclu vergi ödəyicilərinin əmlaklarının siyahıya alınması, bank hesablarına sərəncam göndərilməsi kimi ənənəvi üsullarla yanaşı, onların nəqliyyat vasitələrinin üzərinə həbs qoyulması, ölkədən getmələrinin məhdudlaşdırılması, xeyli və ya külli miqdarda vergiləri ödəməkdən yayınan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi və belə vergi ödəyicilərinin adlarının ictimaiyyətə açıqlanması kimi vasitələrdən son vaxtlar daha geniş istifadə olunmağa başlanılıb.

2015-ci ilin 8 ayı ərzində vergi orqanlarının təşəbbüsü ilə borclarını ödəməkdən imtina edən 148 vergi ödəyicisinin ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılıb, 114 vergi ödəyicisinin borclarının onların mülkiyyətində olan avtonəqliyyat vasitələrinə yönəldilməsi hesabına tutulması məhkəmələr tərəfindən təmin edilib. Yeri gəlmişkən, bu üsullar dünya ölkələrində vergi borcunun ödənilməsi istiqamətində məcburiyyət vasitəsi kimi geniş istifadə olunur və borc öhdəliklərinə etinasız yanaşan ödəyicilərə səmərəli təsir mexanizmlərindən biri hesab edilir.

***Vergi borclarının alınması prosesində borclu ödəyicilərlə iş necə qurulur və aparılan tədbirlərin borclu ödəyicilərin məsuliyyət hissinin artırılmasına təsiri nə dərəcədədir?***

- Çalışırıq ki, borc yarandığı andan vergi ödəyicisi ilə dərhal və birbaşa əlaqə yaradaq. Vergilər Nazirliyində tətbiq edilən müasir informasiya texnologiyaları borclu vergi ödəyicilərinin dərhal məlumatlandırılmasına kifayət qədər imkanlar yaradıb. Borclu vergi ödəyiciləri elektron bildirişlərlə yanaşı, mütəmadi olaraq SMS və səsli mesajlar vasitəsilə öz borcları barədə məlumatlandırılır. Bununla yanaşı, onlar vergi orqanına dəvət edilir, borcları, borcların yaranma səbəbləri və ödənilmədiyi halda görüləcək tədbirlər barədə onlara izahat verilir. Bu yanaşma bir çox hallarda yaranmış vergi borclarının ilkin mərhələdə heç bir məcburi tədbir görülmədən ödənilməsi ilə nəticələnir.

Vergi ödəyicilərinə yanaşmaya gəldikdə, demək olar ki, onları şərti olaraq bir neçə qrupa bölmək olar: vergi öhdəliklərini vaxtında icra edənlər, vergi öhdəliklərini icra etmək istəyən, lakin müəyyən maliyyə çətinlikləri olan və bilərəkdən vergi ödəməkdən yayınan vergi ödəyiciləri.

Vergi orqanlarının əsas məqsədi birinci qrupa daxil olan ödəyicilərin sayının, yəni vergilərin könüllü ödənilməsi səviyyəsinin yüksəldilməsidir. Vergi ödəyicilərinin vergi öhdəliklərinə əməl etmələri üçün inzibatçılıq prosesləri sadələşdirilir, onların inzibati xərclərinin azaldılmasına və elektron xidmətlərdən daha geniş istifadə olunmasına çalışılır.

İkinci qrupa daxil olan vergi ödəyicilərinə vergi öhdəliklərini icra etməyə köməklik göstərilir. Vergilər Nazirliyinin vergi borcları sahəsində fəaliyyət göstərən struktur vahidləri əsas gücünü məhz bu qrupa yönəldir ki, borcla bağlı onlarda məsuliyyət hissinin artırılmasına nail olunsun.

Vergidən yayınmaq istəyən sonuncu qrup vergi ödəyicilərinə qarşı isə qanunvericilikdə nəzərdə tutulmuş sərt tədbirlər görülür. İlk növbədə, inzibati tədbirlər həyata keçirilir, bank hesablarına sərəncam qoyulur, sonra vergi borclarının ödənilməsini təmin etmək üsulu kimi borclu vergi ödəyicisinin əmlakı siyahıya alınır. 2015-ci ilin 8 ayı ərzində 1961 vergi ödəyicisinin dövlət büdcəsinə yaranmış borcu üzrə əmlakın siyahıya alınması barədə qərarlar açılıb və 42,3 milyon manat məbləğində vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilib.

Bir məsələni xüsusilə vurğulamaq istərdim ki, vergi ödəyiciləri borcun yaranmasına çox ehtiyatlı yanaşmalıdırlar. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 213-cü maddəsinə görə, xeyli miqdarda (2000 manatdan 50000 manatadək olan məbləğ) vergiləri dövlət büdcəsinə ödəməkdən yayınmış şəxslər 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə min manatdan iki min manatadək cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar. Bu əməl mütəşəkkil dəstə tərəfindən törədildikdə və ya onlar külli miqdarda (50000 manatdan yuxarı məbləğ) vergini büdcədən yayındırdıqda isə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə və ya üç ildən yeddi ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılırlar. Göründüyü kimi, dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, Azərbaycanda da vergi öhdəliklərinin icrasından yayınmaq, vergi borcuna etinasız yanaşmaq sərt cəza tədbirlərini nəzərdə tutur.

Məlumat üçün deyim ki, təkcə cari ilin səkkiz ayı ərzində 1585 vergi ödəyicisi barəsində toplanmış materiallar Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinə göndərilib. Onlardan 123 vergi ödəyicisi ümumilikdə 2,1 milyon manat məbləğində borclarını tam ödədikləri üçün barələrində cinayət işinin başlanmasından imtina olunması barədə qərar çıxarılıb, 162,6 milyon manat məbləğində vergiləri ödəməkdən yayındırmış 1394 fiziki və hüquqi şəxs barəsində isə cinayət işləri başlanıb. Başlanmış cinayət işləri üzrə təkcə cari ilin səkkiz ayı ərzində dövlətə vurulmuş 36,9 milyon manat məbləğində ziyanın ödənilməsi təmin edilib, 29,8 milyon manat məbləğində vergi borcunu tam ödəmiş vergi ödəyiciləri barədə olan 363 iş üzrə icraata xitam verilib. Bundan başqa, araşdırılması davam etdirilən 152 cinayət işi üzrə daha 7,1 milyon manat məbləğində vergi borcu dövlət büdcəsinə ödənilib.

Cinayət işləri üzrə araşdırma aparılarkən istintaqdan yayınan və ya araşdırmaya maneçilik törədən 81 sahibkar şübhəli şəxs qismində tutulub, onlardan 43-ü barəsində məhkəmə qərarı ilə həbs qətimkan tədbiri seçilib. 2015-ci ilin 8 ayı ərzində 162,6 milyon manat məbləğində vergini ödəməkdən yayındırdığına görə 1394 vergi ödəyicisi barəsində cinayət işi açılıb. Açılmış cinayət işlərindən 444-ü məhkəməyə göndərilib.

***Hamıya məlumdur ki, bütün dünyada vergilərin ödənilməməsi halları ilə çox sərt mübarizə aparılır. Yaranmış vergi borclarının alınması üçün dünya təcrübəsində daha hansı mexanizmlərdən istifadə edilir?***

- ABŞ, Böyük Britaniya, Almaniya, İsveç, Yaponiya, Kanada kimi inkişaf etmiş ölkələrdə vergi borclarının yığılmasının təmin edilməsi üçün əmlaka həbs və ya cərimələrin tətbiqi (o cümlədən əməkhaqqına, bank hesablarındakı vəsaitlərə, debitor borclara, rəhbərin şəxsi əmlakına həbs qoyulması və s.), fəaliyyət üçün verilən lisenziyadan məhrumetmə, ölkədən çıxmağa məhdudiyyət, kredit almağın məhdudlaşdırılması, rəhbərin həbs edilməsi, kollektor agentliklərinin köməyi ilə borcların alınması, borclunun əmlakının məcburi idarəetməyə verilməsi və məcburi ipotekaya cəlb olunması kimi üsullardan geniş istifadə edilir. Cərimə tətbiq olunan əmlaka gəldikdə, bir çox ölkələrdə cəriməni tətbiq edən qurum mövcud əmlakdan seçmə hüququna malikdir.

Dünya vergi administrasiyalarının arsenalında borcun məcburi alınmasının bir çox başqa üsulları da vardır. Kanada, ABŞ və İsraildəki mövcud qanunvericiliklə borclunu sürücülük vəsiqəsindən məhrum etmək olar.

Şübhəsiz, vergi ödəyicisinin əmlakına (vəsaitlərinə) həbs təhlükəsi cəmiyyətdə vergi intizamının yüksək səviyyədə saxlanmasının güclü mexanizmidir və bu, bir daha göstərir ki, dünya təcrübəsi vergidən yayınanlara qarşı liberallıq göstərmir, çox sərt mövqe nümayiş etdirir. Bu baxımdan, dünya praktikasında vergi orqanlarının borclu ödəyicilərə qarşı sərt mövqe tutması qəbuledilən və anlayışla qarşılanan addımdır.

***Vergi borclarının alınması strukturlarının vergi hüquqpozmaları ilə məşğul olan departamentin tərkibinə verilməsini məhz dünya təcrübəsindən irəli gəldiyini söyləmək olarmı?***

- ABŞ, Böyük Britaniya və s. kimi inkişaf etmiş ölkələrdə vergi borclarının alınması strukturları təhqiqat aparan strukturlarla sıx koordinasiyada işləyir. Məsələn, Britaniyanın Kral Gəlirlər və Gömrük Xidmətinin Məcburetmə və əməletmə baş idarəsi həm də cinayət istintaqı və borcların idarə olunması strukturlarını koordinasiya edir və kifayət qədər səmərəli nəzarət mexanizmləri qurulub. Azərbaycanda da bu sahədə görülən tədbirlərin əlaqələndirilməsi və koordinasiya edilməsi məqsədilə müvafiq addım atılıb. Vergi borclarının alınması ilə məşğul olan qurumlar artıq tam müstəqil fəaliyyət göstərən, yerli vergi orqanlarına tabe olmayan bir quruma çevrilib. Bu qurumların Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin tərkibinə daxil edilməsi isə intizamsız vergi ödəyicilərinə bir siqnaldır: əgər borclar qanunda nəzərdə tutulmuş qısa müddətdə ödənilməsə, onları cinayət məsuliyyəti gözləyir.

Bu gün Azərbaycanda vergi yükü Avropa ölkələrinə nisbətən xeyli az, vergi dərəcələri aşağıdır. Buna baxmayaraq, təəssüf ki, vergidən yayınmağa cəhd edən və vergi borcuna etinasız münasibət göstərən vergi ödəyicilərinin sayı yolverilməz dərəcədə çoxdur. Fürsətdən istifadə edərək, vergi ödəyicilərini vergi öhdəliklərinin yerinə yetirilməsinə daha məsuliyyətli yanaşmağa, ən yaxşısı isə vergi borcunun yaranmasına yol verməməyə çağırıram.

# Uzunmüddətli inkişaf strategiyası müəyyənləşdirilib

Energetika Nazirliyi yerli və xarici mütəxəssislərin, energetika sahəsində fəaliyyət göstərən qurumların rəy və təkliflərini nəzərə almaqla ölkənin energetika sektorunun uzunmüddətli və effektiv inkişafının prioritet istiqamətlərini müəyyənləşdirib. Məqsəd respublikanın bütün enerji ehtiyatlarının (təbii qaz, elektrik enerjisi, su, günəş, külək, sənaye-məişət tullantıları və sair) səmərəli istifadəsinə, bu ehtiyatların tam şəkildə enerji balansında iştirakına və ölkə iqtisadiyyatının yüksək templə inkişafına nail olmaqdır.

Strateji inkişafın konsepsiyalarının və tədbirlər kompleksinin hazırlanması əsasən bunları əhatə edir:

- energetika sektorunun 25-30 illik inkişaf strategiyası;
- enerji resurslarından səmərəli istifadəyə və alternativ enerji mənbələrinə üstünlük verilməsini nəzərdə tutan 15-20 illik Dövlət Proqramı;
- energetika sektorunun inkişafı üzrə beşillik Dövlət Proqramı.

Qanunvericilik və normativ-hüquqi bazanın yaradılması energetika sektorunun uzunmüddətli və effektiv inkişafının təmin edilməsi üçün bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi də zəruri hesab edilir. Bu məqsədlə bir sıra vəzifələrin yerinə yetirilməsi məqsədəuyğundur:

- elektrik enerjisi üzrə tənzimlənən daxili bazar haqqında qanun layihəsinin;
- təbii qaz üzrə tənzimlənən daxili bazar haqqında qanun layihəsinin;
- daxili enerji bazarlarını (elektrik və təbii qaz üzrə) tənzimləyən müstəqil tənzimləyici orqan haqqında qanun layihəsinin;
- elektrik enerjisi və təbii qaz üzrə şəbəkə məcəllələrinin hazırlanması.

Bundan başqa, bazar subyektlərinin strukturlaşdırılması və tarif siyasəti məqsədilə elektrik enerjisi və təbii qaz sistemlərinin («Azərenerji» ASC, «Azərişıq» ASC, «Azəriqaz» İB ) strukturlarının qanunvericilikdə nəzərdə tutulan bazar subyektləri əsasında yenidən qurulması, son tələbatçıların və digər bazar subyektlərinin maraqlarını əks etdirən, bölüşdürülə bilən, məhsulun və xidmətin maya dəyərinə əsaslanan çevik tariflər sisteminin yaradılması təklif olunur.

**RƏŞAD**

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Yanvar-avqust aylarında ölkənin emal sənayesində **5,1 milyard** manatlıq məhsul istehsal olunub. Bu il əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə qida məhsullarının istehsalında **3,5%** artım, içki istehsalında **4,8%**, tütün məmulatlarının istehsalında isə **16,7%** azalma olub.
- Ötən 8 ay ərzində ölkənin sosial-iqtisadi sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala **1 milyard 550,1 milyon** manat vəsait yönəldilib.
- 2020-ci ilədək Azərbaycanın Türkiyəyə yatıracağı investisiyaların həcminin **17-20 milyard** ABŞ dolları səviyyəsinə çatdırılması nəzərdə tutulur.
- 2015-ci ilin yanvar-avqust aylarında ölkəmizdə yük daşınmasında ümumi idxalın həcmi **4 milyon 987 min 867,03** ton olub.

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Səyyar vergi yoxlaması

***Səyyar vergi yoxlaması həyata keçirilən zaman vergi orqanı əməkdaşları sahibkarlıq fəaliyyəti göstərdiyim əraziyə daxil ola bilərlərmi?***

Azərbaycan Respublikası Vergi Məcəlləsinin (VM) 36.1-ci maddəsinə əsasən, vergi orqanları tərəfindən keçirilən yoxlamalar kameral və ya səyyar ola bilər. Səyyar vergi yoxlaması vergi ödəyicisinin vergitutma obyektlərinin uçota alınmasının, vergilərin düzgün bəyan edilməsinin və vergi qanunvericiliyi ilə müəyyən olunmuş digər məsələlərə əməl edilməsinin düzgünlüyünü yoxlamaq məqsədi daşıyır.

VM-in 40-cı maddəsinə görə, vergi orqanlarının vəzifəli şəxsləri səyyar vergi yoxlamasının keçirilməsi üçün ərazilərə və ya binalara daxil ola bilərlər. Onların vergi ödəyicisinin sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün istifadə etdiyi ərazisinə və ya binasına (yaşayış binaları (sahələri) istisna olmaqla) bilavasitə daxil olması həmin şəxslər tərəfindən öz xidməti vəsiqələrini və vergi orqanının rəhbərinin (onun müavininin) həmin vergi ödəyicisində səyyar vergi yoxlamasının keçirilməsi haqqında qərarı və ya məhkəmənin qərarı təqdim edildikdən sonra həyata keçirilir.

Qərarda onun nömrəsi, qərarın çıxarıldığı yer (ünvan), tarix, vergi orqanının adı, qərarı qəbul edən vergi orqanının rəhbərinin (onun müavininin) rütbəsi, soyadı, adı, atasının adı, yoxlanılan vergi ödəyicisi barədə məlumatlar, səyyar vergi yoxlamasının məqsədi, yoxlamanın əhatə etdiyi dövr, yoxlamanı həyata keçirən vəzifəli şəxs (şəxslər) barədə məlumatlar, yoxlamanın keçirilmə müddəti, qərardan şikayət verilməsi qaydası, qərarı qəbul edən vəzifəli şəxsin imzası və vergi orqanının möhürü əks olunmalıdırf.

Səyyar vergi yoxlamasının keçirilməsi üçün vergi orqanının vəzifəli şəxslərinin ərazilərə və binalara (yaşayış binaları (sahələri) istisna olmaqla) daxil olmağa icazə verilmədikdə, yoxlamanı keçirən vergi orqanının vəzifəli şəxsləri və vergi ödəyicisi tərəfindən imzalanan akt tərtib edilir. Həmin akta əsasən, ödənilməli olan vergi məbləğlərini Vergi Məcəlləsinin 67-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada vergi orqanının müəyyən etmək hüququ vardır. Vergi ödəyicisi həmin aktı imzalamaqdan imtina etdikdə, bu, aktda qeyd olunur. Tərtib olunmuş aktın surəti vergi ödəyicisinə verilir.

Qeyd edək ki, müvafiq ərazilərə daxil olmağa qeyri-qanuni maneçilik vergi qanunvericiliyinin pozulması hesab edilir və İnzibati Xətalar Məcəlləsi ilə müvafiq qaydada məsuliyyətə səbəb olur.

Vergi orqanlarının vəzifəli şəxsləri yaşayış binalarına (sahələrinə) yalnız orada yaşayan fiziki şəxslərin razılığı ilə daxil ola bilərlər.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

# Azərbaycandakı makroiqtisadi mühit yüksək qiymətləndirilir

Dünya İqtisadi Forumu dünya ölkələrinin iqtisadi vəziyyətinə və rəqabətqabiliyyətlilik reytinqinə dair yeni hesabatını açıqlayıb. «Global Competitiveness Report 2015-2016» adlı hesabatda Azərbaycan 40-cı yerdə qərarlaşıb. MDB məkanında ən yüksək yer verilən respublikamızın iqtisadi vəziyyəti regionun digər ölkələri ilə müqayisədə sabitlik baxımından qənaətbəxş hesab olunub. Qeyd edilib ki, dünyada yaranmış böhrana qarşı qonşu ölkələrə nəzərən daha artıq sabitlik nümayiş etdirən Azərbaycanda aşağı inflyasiya və dövlət maliyyəsinin əlverişli səviyyəsi ilə xarakterizə olunan güclü makroiqtisadi mühit mövcuddur.

| Ölkə | Reytinq |
|---|---|
| İsveçrə | 1 |
| Sinqapur | 2 |
| ABŞ | 3 |
| Almaniya | 4 |
| Niderland | 5 |
| Yaponiya | 6 |
| Honq-Konq | 7 |
| Finlandiya | 8 |
| İsveç | 9 |
| Böyük Britaniya | 10 |
| ⋮ | |
| Azərbaycan | 40 |
| Qazaxıstan | 42 |
| Rusiya | 45 |
| Gürcüstan | 66 |
| Ukrayna | 79 |
| Tacikistan | 80 |
| Ermənistan | 82 |
| Moldova | 84 |
| Qırğızıstan | 102 |

D nya qtisadi Forumu: «qtisadiyyat n ax l ndirilm si uzunm dd tli art ma nail olmaq n vacibdir»

Hesabat müəllifləri neft və qazın qiymətlərinin ucuzlaşmasının ölkə iqtisadiyyatına mənfi təsirlərini qeyd edərək, enerji tədarükündən gələn gəlirlərin azalması tendensiyasının davam edəcəyinə də diqqət yönəldiblər. Bu amilin dövlət büdcəsinə mənfi təsir göstərə biləcəyi proqnozlaşdırılıb. Forumun analitikləri hesab edirlər ki, Azərbaycan hazırkı şəraitdə uzunmüddətli artımı təmin etmək üçün öz iqtisadiyyatını şaxələndirməlidir. Xammal məhsullarının qiymətinin ucuz olacağının gözlənildiyi bir vaxtda iqtisadiyyatın diversifikasiyası və bazar siyasətinin reallaşdırılması uzunmüddətli artıma nail olmaq üçün çox önəmlidir. Hesabat müəlliflərinin rəyinə əsasən, Azərbaycan gələcək inkişafında iki əsas məsələni xüsusilə nəzərə almalıdır: özəl biznesə müdaxilələrin qarşısının alınması və şəffaflığın gücləndirilməsi, maliyyə sektorunun inkişaf etdirilməsi. Hesabatda göstərilib ki, sahibkarlıq fəaliyyəti iqtisadiyyatda əsas yer tutmalı və özəl investisiyaların axını hesabına qeyri-neft sektorunun inkişafı təmin olunmalıdır.

Dünya İqtisadi Forumunun ölkəmizdəki tərəfdaşı olan Azərbaycan Marketinq Cəmiyyətinin sədr müavini Əşrəf Hacıyev bildirib ki, hesabatda biznesin həm daxili, həm də xarici amillər üzrə qiymətləndirilməsinə yer verilib. Xarici və yerli sahibkarların fəaliyyətində sağlam rəqabət, digər dövlətlərlə əlaqələrdə rəqabətqabiliyyətliliyin təmin olunması səviyyəsi və s. göstəricilər nəzərə alınıb. Onun sözlərinə görə, rəqabətqabiliyyətlilik göstəricisinin yüksək olmasına təsir edən ən böyük faktor makroiqtisadi mühitdir. Hesabatda Azərbaycan bu göstərici üzrə 10-cu sıradadır. Sağlam rəqabət şəraitində kəmiyyət və keyfiyyət etibarilə məcmu istehsal sürətlə artır və bu, ölkənin əsas makroiqtisadi göstəricilərinin yaxşılaşmasına ciddi təsir göstərir. Dünyada davam edən mürəkkəb qlobal iqtisadi proseslər fonunda Azərbaycan iqtisadiyyatında dinamik inkişaf və makroiqtisadi sabitlik davam edib, 2015-ci ilin birinci yarısında iqtisadi artım 5,7 faizə bərabər olub.

**Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyin müəyyən olunması üçün 12 göstəricidən istifadə edir:**

- keyfiyyət
- infrastruktur
- makroiqtisadi sabitlik
- sağlamlıq və ilkin təhsil
- ali təhsil və peşəkar hazırlıq
- əmtəə və xidmətlər bazarının səmərəliliyi
- əmək bazarının səmərəliliyi
- maliyyə bazarının inkişafı və şəffaflıq
- institusional islahatlar və texnoloji səviyyə
- daxili bazarın həcmi
- şirkətlərin rəqabət qabiliyyəti
- innovasiya potensialı

Qeyd olunub ki, reytinqin formalaşmasına təsir göstərən daha bir amil əlverişli rəqabət mühitinin formalaşdırılmasıdır ki, Azərbaycan bu istiqamətdə bir sıra mühüm qanunlar qəbul edib. Hökumətin azad biznes mühitinin təmin olunması və rəqabətqabiliyyətliliyin davamlı xarakter alması ilə bağlı təsirli və kompleks islahatları ölkə iqtisadiyyatı üçün səmərəli perspektiv yaradır. Dövlətin biznesə müdaxiləsinin tamamilə qarşısının alınması ilə bağlı həyata keçirdiyi yeni texnoloji metodlar, tətbiq edilən elektron xidmətlər, biznesin idarə olunmasında ən son informasiya texnologiyalarından istifadə və digər tədbirlər bu strategiyanın başlıca istiqamətlərini təşkil edir. Ölkənin rəqabətqabiliyyətlilik indeksinə təsir edən amillərdən ən əsası xarici investorların maraq dairəsində və yatırılan sərmayələrin həcmində də özünü göstərir. Son illərdə ölkə iqtisadiyyatına sərmayə qoyuluşlarının artımı da bunu təsdiq edir. Hazırda Azərbaycanda Rəqabət Məcəlləsinin yeni layihəsi üzərində işlər davam etdirilir. Gözlənilir ki, bu qanunun qəbul edilməsi investisiya fəallığına öz ciddi təsirini göstərəcək.

Qeyd edək ki, hesabatda respublikamızda əmək bazarının səmərəliliyi, inflyasiya, dövlət borcu kimi göstəricilər də yüksək qiymətləndirilib.

**E.CƏFƏRLİ**

# «Təhlükəsiz iş aylığı» başa çatdı

Azərbaycanda işçilərin hüquqlarının müdafiəsi və təminatına, təhlükəsiz əmək şəraitinin yaradılmasına dövlət nəzarətinin daha səmərəli həyata keçirilməsi üçün ardıcıl tədbirlər görülür, mövcud nöqsanlar aşkarlanaraq aradan qaldırılır, əldə olunmuş təcrübələr təhlil edilir. Dövlət Əməyin Mühafizəsi Xidmətinin müntəzəm elan etdiyi «Təhlükəsiz iş aylığı» artıq öz müsbət nəticələrini verir. Aylığın keçirilməsində əsas məqsəd istehsalat qəza riski yüksək olan xidmət sahələrində, xüsusən avtomobillərə texniki xidmət və avtoyuma məntəqələrində sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına nail olunması və istehsalat qəzalarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsidir. Sentyabr ayında keçirilmiş sonuncu aylığın yekunları ilə bağlı verilmiş açıqlamada bildirib ki, «Təhlükəsiz iş aylığı» başlamazdan əvvəl avtomobillərə texniki xidmət və avtoyuma sahəsi üzrə 1000 nəfər işəgötürənə məktubla müraciət edilmiş, tədbirin keçiriləcəyi barədə məlumatlandırılmışdır. Əməyin mühafizəsi sahəsində qanunvericilikdən irəli gələn vəzifələr onların nəzərinə çatdırılmış, üzərlərinə düşən öhdəliklərin yerinə yetirilməsi tələb edilmişdir. Aylıq çərçivəsində ümumilikdə 107 işəgötürəndə dövlət nəzarəti keçirilmiş, 83 qanun pozuntusu aşkar edilmiş və 79 inzibati xəta haqqında protokol tərtib olunmuşdur. Ay ərzində 79 sahibkara qarşı ümumilikdə 179.900 manat məbləğində inzibati cərimə tətbiq edilmişdir. Bundan başqa, nəzarət tədbirləri zamanı vergi ödəyicisi kimi qeydiyyatdan keçməyən 17 sahibkar da aşkar edilmişdir.

*Ay ərzində 79 sahibkara qarşı ümumilikdə 179.900 manat məbləğində inzibati cərimə tətbiq edilib*

Ümumiyyətlə, son illər əməyin mühafizəsi tələblərini yerinə yetirməyən müəssisələrlə bağlı qanunvericiliyə uyğun inzibati xarakterli təsirli tədbirlərlə paralel olaraq, işəgötürənlər arasında təbliğat-maarifləndirmə işləri mütəmadi xarakter daşıyır. İri müəssisələrin rəhbərləri və əmək kollektivləri ilə görüşlər keçirilir, onlara təhlükəsiz iş şəraitinin yaradılması ilə bağlı hüquqi-praktik bilgilər verən əyani vəsaitlər paylanılır. Ötən ilin noyabr ayından Dövlət Əməyin Mühafizəsi Xidməti tərəfindən ölkəmizdə ilk dəfə olaraq bu sahə üzrə tədris kurslarının təşkilinə başlanılıb. İndiyədək müxtəlif müəssisələrdən 660 nəfərə yaxın mütəxəssis həmin kurslara cəlb olunub. Təlimlər zamanı onlar əməyin təhlükəsizliyinin təşkil edilməsi ilə bağlı bilik və təcrübələrə yiyələnib, kursları bitirdikdən sonra sertifikat alıblar.

Həm ciddi inzibati tədbirlərin həyata keçirilməsi, həm də davamlı maarifləndirmə işləri artıq müsbət nəticələrini verir və istehsalatla əlaqəli bədbəxt hadisələrin, bu hadisələrdə zərərçəkənlərin sayı getdikcə azalır. Təkcə 2015-ci ilin avqust ayında istehsalatda qəza hadisələrinin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,5 faiz, xəsarət alanların sayı isə 7,1 faiz azalıb. Ümumilikdə isə bu ilin 8 ayında istehsalatla əlaqəli bədbəxt hadisələrin sayında ötən ilin müvafiq dövrü ilə müqayisədə 33,3 faiz, xəsarət alanların sayında isə 38,3 faiz azalma qeydə alınıb.

«Təhlükəsiz iş aylığı» ölkəmizdə əməyin mühafizəsində müsbət meyillərlə yanaşı, bir sıra müəssisələrdə bu sahədə ciddi hüquq pozuntularının, işçilərin həyat və sağlamlığı üçün təhlükə doğuran əmək şəraitinin mövcudluğunu da ortaya çıxarıb. Əldə olunan yekunlar qarşıdakı dövrdə iş yerlərində daha sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasına yönələn nəzarət tədbirlərinin səmərəli və məqsədyönlü təşkili baxımından da ciddi əhəmiyyət daşıyır.

**AYTƏN**

# Azərbaycan şirkətləri Rusiyaya ixracı artırır

**Şimal qonşumuz Rusiyanın işgüzar dairələrinin Azərbaycanla münasibətlərinin dərin tarixi kökləri vardır və bu münasibətlər uğurla davam etdirilir.**

Son vaxtlar Rusiyanın ayrı-ayrı regionlarının təmsilçilərinin ölkəmizlə iqtisadi tərəfdaşlığa marağı güclənməkdədir. İxracın və İnvestisiyaların Təşviqi Fondunun rəhbəri Rüfət Məmmədovun sözlərinə görə, Azərbaycan Rusiyanın 76 regionu ilə sıx ticari-iqtisadi əlaqələrə malikdir. Onların sırasında Sankt-Peterburq əsas tərəfdaşlardandır. Respublikamızın 10-dan artıq ixracatçı şirkəti bu regiona qida və müxtəlif sənaye malları göndərir. Hər iki tərəf strateji tərəfdaşlığın möhkəmləndirilməsi üçün yeni plan hazırlayıb və Azərbaycan daha çox bu regiona ərzaq, tərəvəz və emal olunmuş müxtəlif adda məhsullar ixrac edəcək.

Bakıda keçirilən Azərbaycan-Rusiya işgüzar forumunda Sankt-Peterburq hökumətinin iqtisadi inkişaf komitəsinin sədri Elgiz Kaçayev bildirib ki, son bir ildə Azərbaycan şirkətləri tərəfindən Rusiya regionlarına, o cümlədən təmsil etdiyi şəhərə ixrac olunan malların həcmi əhəmiyyətli dərəcədə artıb. Bununla yanaşı, Rusiyanın Azərbaycan iqtisadiyyatına sərmayə yatırımının dinamikasında da artım qeydə alınmaqdadır. Öz ölkəsinin Azərbaycan iqtisadiyyatına yönəltdiyi investisiyaların həcminin 2 milyard dollara yaxınlaşdığını deyən E.Kaçayev qarşıdakı 5 ildə bu rəqəmin 2 dəfə artacağının proqnozlaşdırıldığını vurğulayıb.

*Sankt-Peterburq hökuməti Azərbaycan regionlarına 500 milyon dollardan artıq investisiya yatırmağı planlaşdırır*

Yaxın 5 il ərzində Azərbaycanla nəzərdə tutulan qarşılıqlı əməkdaşlıq və investisiya layihələrinin əsas istiqamətləri barədə açıqlama verən Sankt-Peterburq hökumətinin İnvestisiyalar üzrə komitəsinin sədri İrina Babyuk diqqəti ötən il Bakıda keçirilən Azərbaycan-Rusiya regionlararası forumunda RF-nin Regionların İnkişafı Nazirliyi ilə Azərbaycanın İqtisadiyyat və Sənaye Nazirliyi arasında qarşılıqlı anlaşma memorandumunun imzalanmasına yönəldib. Həmin sənədə əsasən, aqrar sahədə əməkdaşlıq və qarşılıqlı investisiya qoyuluşu başlıca prioritetlər kimi müəyyən edilib. Memorandumda qeyd olunub ki, Sankt-Peterburq hökumətinin iri şirkətləri Azərbaycanda sənaye, İKT, aqrar-sənaye, kənd təsərrüfatı və digər sahələrə sərmayə qoymağı planlaşdırır. «Avanqard Petropayr», «REP-Holdinq», «Ninera Enerqo», «Zvezda» kimi şirkətlər Azərbaycanda aqrar-sənaye komplekslərinin, logistika mərkəzlərinin yaradılması, farmakoloji və tibbi ləvazimatların istehsalı, həmçinin İKT və innovasiya sahələri üzrə birgə müəssisələrin təşkilində maraqlıdır. Xanım Babyuk Azərbaycanın regionlarında yeni aqrar-sənaye layihələrinin həyata keçirilməsində, biznes inkubatorlarının yaradılmasında rus iş adamlarının təcrübəsinin müsbət nəticələr verəcəyinə əmin olduğunu deyib. Sankt-Peterburqun işgüzar dairələri ilə razılaşmaya əsasən, onlar Azərbaycan hökumətinin bölgələrdə yaratmaq istədiyi aqroparkların təşkilində iştirak edəcək. Əməkdaşlığın nəticəsi olaraq, Sankt-Peterburqda fəaliyyət göstərən Kirov Maşınqayırma Zavodu respublikamız üçün müxtəlif adda kənd təsərrüfatı maşınları və texnikasının istehsalına başlamağı planlaşdırır. Ümumiyyətlə isə bu şəhərin investorları yaxın perspektivdə Azərbaycan regionlarına 500 milyon dollardan artıq investisiya qoymağı nəzərdə tuturlar.

**ELBRUS**



# Vergi siyasətinin stimullaşdırıcı olması daha səmərəlidir



İqtisad üzrə fəlsəfə doktoru Ədalət Əsədovun «Vergilər» qəzetinə müsahibəsi

***- Ədalət müəllim, bu günlərdə Maliyyə Nazirliyi 2016-cı ilin dövlət büdcəsi layihəsi ilə bağlı məlumatları açıqladı. Layihə barədə ilkin təhlil diqqəti hansı təmayüllərə yönəldir?***

- Büdcə layihəsi real iqtisadi vəziyyət, dünyada gedən qlobal maliyyə və iqtisadi proseslərdə müşahidə olunan dəyişkənliklər nəzərə alınmaqla tərtib edilib və nikbin təsəvvür yaradır. Layihənin hazırlanmasında dövlət büdcəsinin sosialyönümlü olması əsas götürülüb, respublika əhalisinin maddi rifahının daim yaxşılaşdırılması, ölkəmizin müdafiə gücünün və təhlükəsizliyinin təmin edilməsi, qeyri-neft sektorunun inkişafına dəstək kimi mühüm amillərə xüsusi diqqət yetirilib. Gələn il büdcə gəlirləri 14,566 milyard manat, büdcə xərcləri isə 16,264 milyard manat təşkil edəcək və prinsipcə büdcənin tərtibatı qeyri-neft sektorunun inkişaf bazasına əsaslanır. Neftin bir barelinin büdcədə 50 dollar müəyyən edilməsi və bunun fonunda 16,264 milyard manatdan artıq xərcə malik büdcənin tərtib edilməsi normal sayıla bilər. Diqqəti cəlb edən əsas məsələ isə budur ki, büdcədə investisiya xərclərinin bir hissəsinin azaldılmasına baxmayaraq, sosial müdafiə, hərbi, elm, təhsil, sahibkarlıq və digər xərclərin artırılması nəzərdə tutulub. Bu isə ölkədə sosialyönümlü layihələrin uğurlu icrası, azad biznesin inkişafı üçün stimulların daha da artırılmasıdır. Bütövlükdə, büdcə layihəsi gələn il ölkədə ümumi inkişafın davam etməsi üçün praqmatik maliyyə sənədi hesab oluna bilər.

***- Hazırda qlobal iqtisadiyyatda baş verən tendensiyalar müxtəlif ölkələrin iqtisadi-maliyyə sektoruna öz təsirini bu və ya digər dərəcədə göstərməkdədir. Bu proses neftin ucuzlaşması fonunda Azərbaycan iqtisadiyyatına təsirsiz qalmayıb. Necə hesab edirsiniz, indiki şəraitdə iqtisadiyyatın neftdənkənar sahələrini inkişaf etdirmək üçün hansı addımlar atılmalıdır?***

- Azərbaycanda qeyri-neft sektorunun inkişafı üçün münbit şərait və əlverişli xammal resursları mövcuddur. Son illər icra olunan dövlət proqramları nəticəsində qeyri-neft sektoru dinamik inkişaf etməkdədir. Artıq büdcənin qeyri-investisiya xərcləri əsasən iqtisadiyyatın qeyri-neft sektorundan daxil olan vəsaitlər hesabına ödənilir. Gələn il ölkədə ümumi daxili məhsulun 57,7 mlrd. manat, o cümlədən qeyri-neft sektorunun ÜDM-də payının 41,5 mlrd. manat olacağı proqnozlaşdırılır. Bununla belə, dünya iqtisadiyyatında baş verən proseslər qlobal məkana sürətlə inteqrasiya olunan Azərbaycana da təsir edir. Bu faktor iqtisadiyyatın müqayisəli üstün sahələrinə daha çox diqqət göstərilməsini tələb edir. Ölkəmizin mövcud təbii-iqtisadi potensialı, perspektiv istehsal və xidmət sahələri nəzərə alınmaqla qeyri-neft sektorunun üzərində qurulan modellərin tətbiqi zəruridir.

***- Ölkənin davamlı inkişafında mühüm yer tutan sahibkarlıq sektorunu irəli aparmaq üçün hansı islahatların aparılmasını zəruri hesab edirsiniz?***

- Bazar münasibətləri şəraitində istər iqtisadiyyatın, istərsə də dövlətin dayağı sahibkarlıq strukturlarıdır. Güclü sahibkar - iqtisadi cəhətdən güclü ölkə deməkdir. Sahibkar özünü inkişaf etdirməklə cəmiyyətin də inkişafını təmin etmiş olur. Bu baxımdan, sahibkarı özünü inkişaf etdirməyə sövq etmək, həvəsləndirmək bu sahədə həyata keçirilən tədbirlərin başlıca istiqamətlərindən biri olmalıdır. Uzun müddət vergi orqanlarında çalışmış bir iqtisadçı-tədqiqatçı kimi mən heç bir sahənin vergidən azad edilməsini dəstəkləmirəm. Bununla belə, vergi siyasətinin, inzibatçılıqla yanaşı, stimullaşdırıcı olmasını arzu edirəm. Bu, daha səmərəli olardı. Məsələn, arzu ediləndir ki, inkişafı daha zəruri hesab olunan sahə üzrə il ərzində daha çox vergi ödəyən, daha çox iş yeri yaradan və s. sahibkar Vergilər Nazirliyi tərəfindən fərqləndirilsin, adı mətbuatda işıqlandırılsın. İlin ən yaxşı sahibkarı, vergi öhdəliklərini vaxtında ödəyən sahibkar, ən çox ixrac edən iş adamı kimi müxtəlif nominasiyalar üzrə stimullaşdırıcı addımların atılması, məncə, sahibkarlığın inkişafına müsbət təsir göstərə bilər.

***- Özəl sektorun inkişafının dövlət tərəfindən dəstəklənməsi sahəsində nə kimi addımların atılmasını zəruri hesab edirsiniz?***

- Zənnimcə, dövlət dəstəyi özünü xüsusilə üç istiqamətdə göstərməlidir: istehsal, saxlama, satış. İlk növbədə, bu dəstək güzəştli kreditlər şəklində ola bilər. Ayrı-ayrı regionlar üzrə inkişafı daha çox zəruri olan istiqamətlər üzrə güzəştli kreditlərin təklifini məqsədəuyğun hesab edirəm. Bundan əlavə, dövlətin sahibkarlara dəstəyinin bir istiqamətini də mütəmadi maarifləndirilmə, xüsusilə regionlarda məsləhət xidmətinin göstərilməsi təşkil edə bilər. Nəhayət, dövlət bazarda alıcı kimi çıxış etməlidir. Yəni sahibkar istehsal etdiyi məhsulun alınmasına əmin olmalıdır. Ölkədə sığorta bazarının inkişafı da sahibkarlığa dəstək baxımından əhəmiyyət kəsb edir. Tam olmasa da, avtomobil sığortasında bu bazar artıq özünü təsdiq etməkdədir.

***- Ölkəmizdə xidmət sektorunun iqtisadi inkişafdakı xüsusi çəkisinin artırılması üçün hansı məsələlərin həlli vacibdir?***

- Qloballaşan dünyada iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, qeyri-istehsal sahələrinin maddi-istehsal sahələrinə nisbətən daha çox artması qanunauyğun haldır. Bu sahələrin inkişaf səviyyəsi bütövlükdə iqtisadi sistemin səmərəli fəaliyyətinin əsas göstəricisidir. Qeyri-istehsalın əsasını isə xidmətlər yaradan sahələrin məcmusu təşkil edir. Bütün dövrlərdə xidmət sahələrinin genişləndirilməsi və təşkilinin daim yaxşılaşdırılması, xidmətin keyfiyyətinin yüksəldilməsi sosial məsələ kimi ümumdövlət əhəmiyyəti kəsb edir. Xidmətlər öz sosial-iqtisadi mahiyyətinə görə xüsusi rol oynayır və əhalinin gündəlik tələbatını ödəməkdə daha fəal çıxış edir, eyni zamanda mühüm təsərrüfat səmərəsi əldə etməyə imkan yaradır. Bu gün əksər inkişaf etmiş ölkələrdə xidmət sahələri ÜDM-in orta hesabla 65%-dən çoxunu təşkil edir. Azərbaycanda da müxtəlif xidmət sahələrinin uzunmüddətli inkişafı üçün potensial imkanlar olmasına, eləcə də bu sahənin inkişaf etdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilməsinə baxmayaraq, xidmət sektorunun ÜDM-də xüsusi çəkisi 30% ətrafındadır. Azərbaycanın coğrafi mövqeyi və təbii potensialı turizm, nəqliyyat, tranzit və s. kimi xidmət sahələrini büdcənin əsas gəlir mənbələrinə çevirmək imkanı verir. Ümumilikdə, xidmət sahələrinin inkişafı üçün kadr potensialının yaxşılaşdırılması, qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi, qiymətlərin maksimum həddinin müəyyən edilməsi ilə qismən tənzimlənməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi və beynəlxalq standartlarla uzlaşdırılması, infrastruktur təminatın yaxşılaşdırılması və s. kimi addımların atılması məqsədəuyğun olardı.

***- Maliyyə-vergi məsələlərində stimullaşdırıcı addımların atılması sahibkarlığın inkişafına hansı təsirləri göstərə bilər?***

- İstənilən sahibkarlıq fəaliyyətinin reallaşması üçün zəruri şərtlərdən biri, bəlkə də birincisi müəyyən maliyyə vəsaitinin olmasıdır. Burada söhbət heç də vergi dərəcələrinin azaldılmasından və ya vergidən azad etməkdən deyil, kiçik və orta sahibkarlıq üçün daha vacib olan müəyyən stimullaşdırıcı addımlardan gedir. Bir misal gətirmək istərdim. Vergi Məcəlləsinin 58.7.1 bəndinə əsasən, nağd hesablaşma qaydalarını pozan sahibkara təqvim ili ərzində birinci dəfə 400 manat, ikinci dəfə 800 manat, üç və daha çox bu kimi hallara yol verəndə isə 1200 manat həcmində maliyyə sanksiyası tətbiq olunur. Mən bir vətəndaş kimi istənilən qanun pozuntusunun qarşısının qətiyyətlə alınmasını alqışlayıram və heç bir səbəb qanunu pozmağa əsas vermir. Eyni zamanda, düşünürəm ki, hər hansı iri sahibkarlıq subyekti üçün 400 manat cəriməni ödəmək o qədər çətinlik yaratmasa da, bəzi hallarda bu, kiçik sahibkar üçün müflis olmaq deməkdir. Zənnimcə, belə məsələlərdə müəyyən fərqli yanaşmaların tətbiqi daha məqsədəuyğun olardı.

***- Kiçik və orta xidmət sahibkarlıq subyektləri tərəfindən qaldırılan əsas məsələlərdən biri məcburi sosial sığorta ayırmaları ilə bağlıdır. Bu sahədə hansı dəyişikliklərə ehtiyac var?***

- Bildiyimiz ki, məcburi sosial sığorta haqqı respublika üzrə minimum əməkhaqqına nisbətlə hesablanır və ödənilir. Konkret olaraq xidmət sahələrini götürsək, ticarət və nəqliyyat xidməti göstərən sahibkarlar (105*50%=52.50 manat) üçün bu məbləğ 52.50 manat, digər xidmət sahələri üçün isə (105*20% =21manat) 21 manat təşkil edir. Bu zaman 15-20 kvadratmetr sahədə kiçik ticarətlə məşğul olan sahibkarla iri topdansatışla məşğul olan sahibkar arasında heç bir fərq olmaması və yaxud 30-40 kvadratmetr sahədə çay satışı xidməti göstərənlə iri restoran və ya şadlıq evi qarşısında eyni tələbin qoyulması, fikrimcə, ədalətli yanaşma deyil. Məlumdur ki, işçiyə ödənilən ümumi əməkhaqqının 25%-i (22%+3%) sosial sığorta kimi ödənilməlidir. Bununla bağlı müvafiq fərqliliklərin tətbiqi məqsədəuyğundur. Bu da bir həqiqətdir ki, məcburi sosial sığortaların çox olması bəzən ikili mühasibatın yaranmasına gətirib çıxarır.

**Elbrus CƏFƏRLİ**

## BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycan 2015-ci ilin yanvar-iyun aylarında Türkiyəyə ən çox investisiya yatıran ölkələrin siyahısında 6-cı yeri tutub.

Hazırda Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatları 7 mlrd. manatdan artıqdır.

Dünya Bankı Azərbaycana pensiya-sığorta sisteminin inkişafının aktuar modelini tətbiq etməyə texniki kömək göstərəcək.

2016-cı ildə Azərbaycanda icbari tibbi sığorta sistemi tətbiq oluna bilər: bunun üçün qanunvericilik bazası artıq hazırdır.

Azərbaycan və Serbiya arasında əldə olunan razılığa əsasən, iki ölkə arasında vizasız gediş-gəlişin təşkili nəzərdə tutulur.

Qarşıdakı 4 ildə ölkəmizdə orta aylıq əməkhaqqının 12%-ə yaxın artması proqnozlaşdırılır.

Neftçala Sənaye Məhəlləsinin tikintisi üzrə işlərə start verilib və bir il ərzində istifadəyə verilməsi nəzərdə tutulur.

2015-ci ilin əvvəlindən Sahibkarlara Kömək Milli Fondunun xətti ilə sahibkarlara 145 mln. manat məbləğində kredit verilib.

# «Fərqlənmə nişanı» və «Xüsusi fərqlənmə nişanı»

*Azərbaycan Respublikası Prezidentinin 31 avqust 2015-ci il fərmanına əsasən, taksi minik avtomobilləri ilə sərnişin daşınmasına xüsusi razılıq (lisenziya) verilməsi və taksi minik avtomobillərinə «Fərqlənmə nişanı»nın verilməsi xidmətləri «ASAN xidmət» mərkəzlərinə həvalə olunub. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyicilərinə «Xüsusi fərqlənmə nişanı» isə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi tərəfindən verilir.*

Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq yük və sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin və yük daşımalarını (o cümlədən taksi ilə) və ya həmin daşımaları müqavilə əsasında digər şəxslər vasitəsi ilə həyata keçirən şəxslər sadələşdirilmiş vergi ödəyiciləridir. Bu şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş verginin vergitutma obyekti hesab olunur.

Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri üçün aylıq sadələşdirilmiş vergi hər bir avtonəqliyyat vasitəsi üçün sadələşdirilmiş verginin ölçü vahidini verginin aylıq məbləğinə və daşımanın həyata keçirildiyi ərazidən asılı olaraq müəyyən edilmiş əmsala vurmaqla hesablanılır və dövlət büdcəsinə ödənilir. Avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarını həyata keçirən vergi ödəyiciləri tərəfindən ödənilmiş vergi, onların həmin ayda fəaliyyət göstərib-göstərməməsindən asılı olmayaraq, geri qaytarılmır və növbəti ayın vergiləri ilə əvəzləşdirilmir. Hazırda «Fərqlənmə nişanı»nın verilməsi xidmətləri «ASAN xidmət» mərkəzləri, «Xüsusi fərqlənmə nişanı» isə Nəqliyyat Nazirliyi tərəfindən verilir.

Vergilər Nazirliyinin Vergi Siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəis müavini Şamil Ərəbov mövzunu şərh edərək bildirib ki, qanunvericilikdə sifarişlə sərnişin və yükdaşıma xidmətlərinin göstərilməsinə görə «Fərqlənmə nişanı», öz istehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünə məxsus yüklərin daşınmasına görə «Xüsusi fərqlənmə nişanı» alınması nəzərdə tutulur. Onun sözlərinə görə, avtomobil nəqliyyatı vasitələri ilə sifarişlə sərnişin və yük daşımalarını həyata keçirən şəxslər (taksi minik avtomobilləri ilə bu fəaliyyəti həyata keçirən şəxslər istisna olmaqla) hər bir avtomobil nəqliyyatı vasitəsi üçün Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyindən təqvim ayının sonunadək öz istəklərinə uyğun olaraq (vergi ödəyicisi kimi uçota alındıqdan sonra) Vergilər Nazirliyi tərəfindən təsdiq edilmiş formada ərizə və ərizəyə həmin fəaliyyət üçün sadələşdirilmiş verginin ödənilməsini təsdiq edən bank ödəniş sənədi (nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanının seriya və nömrəsi aydın göstərilməlidir) əlavə edilərək növbəti ay, rüb, yarım il və ya il üçün ciddi hesabat blankı olan «Fərqlənmə nişanı»nı almalıdırlar. Nəqliyyat vasitəsi üçüncü şəxs tərəfindən alınarkən və ya onun istifadəsinə verilərkən əvvəlki sahibinin və ya istifadəçisinin qabaqcadan ödədiyi vergilər nəzərə alınır və verginin ödənildiyini təsdiq edən «Fərqlənmə nişanı»nın yenidən rəsmiləşdirilməsi tələb olunmur.

«Fərqlənmə nişanı» olmadan avtomobil nəqliyyat vasitələri ilə sərnişin və yük daşımalarının həyata keçirilməsinə nəzarət Azərbaycan Respublikası Nəqliyyat və Vergilər nazirlikləri tərəfindən həyata keçirilir. Bu hallar Nəqliyyat Nazirliyi tərəfindən aşkar edildikdə qanunda nəzərdə tutulmuş qaydada Vergilər Nazirliyinə məlumat verilir. Vergi Məcəlləsinin 50.1-ci maddəsinə əsasən, məcəllənin 221.4.7-ci maddəsi ilə müəyyən edilmiş «Fərqlənmə nişanı» almayan vergi ödəyicilərinin aşkar olunması vergi orqanlarının səlahiyyətlərinə aid edilib. «Fərqlənmə nişanı» olmadan avtonəqliyyat vasitələri ilə sərnişin və yükdaşımaları həyata keçirən şəxslərə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq olunur (Vergi Məcəlləsi, maddə 58.2).

«Fərqlənmə nişanı»ndan fərqli olaraq, «Xüsusi fərqlənmə nişanı» vergi ödəyicisi müəyyən edilmiş formada ərizə ilə müraciət etdikdən sonra 5 gün ərzində verilir. Nəqliyyat Nazirliyi bu nişanı verməkdən imtina edərsə, imtinanın səbəblərini göstərməklə ərizənin verildiyi tarixədək 5 gün müddətində yazılı məlumat verməlidir. İstehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünə məxsus yüklərin daşınmasında istifadə olunan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş vergi növü üzrə vergitutma obyekti sayılmadığından, bu nişanın alınması üçün heç bir əlavə ödənişin həyata keçirilməsi nəzərdə tutulmayıb.

Bundan əlavə, qanunvericiliyə əsasən, xüsusi nişan və avadanlıqlarla təchiz olunmuş xüsusi təyinatlı (sahibkarlıq fəaliyyəti çərçivəsində onlara digər vergi ödəyiciləri tərəfindən göstərilən bu cür xidmətlər istisna olmaqla), habelə dövlət hakimiyyəti orqanlarının, büdcə təşkilatlarının və yerli özünüidarəetmə orqanlarının, Mərkəzi Bankın, hasilatın pay bölgüsü, əsas ixrac boru kəməri haqqında və bu qəbildən olan digər sazişlər çərçivəsində fəaliyyət göstərən xarici podratçıların və subpodratçıların, dövlət fondlarının, xarici ölkələrin diplomatik və konsulluq nümayəndəliklərinin, beynəlxalq təşkilatların nümayəndəliklərinin rəsmi istifadəsi üçün nəzərdə tutulan avtomobil nəqliyyatı vasitələri üçün «Fərqlənmə nişanı» və ya «Xüsusi fərqlənmə nişanı» alınmır, sadəcə, bu cür avtomobil nəqliyyatı vasitələri barədə Vergilər Nazirliyinə məlumat verilməlidir.

Hüquqi şəxs özünə məxsus avtomobil nəqliyyatı vasitələri ilə daşımaları sifariş əsasında həyata keçirdikdə sadələşdirilmiş vergi onun tərəfindən ödənilməlidir. Fəaliyyəti yalnız avtomobil nəqliyyatı vasitələri ilə sərnişin və yük daşımalarından ibarət olan vergi ödəyiciləri vergi orqanlarına bəyannamə vermirlər. Vergi ödəyicilərinin mülkiyyətində olan avtomobil nəqliyyatı vasitələri ilə öz istehsal fəaliyyətini təmin etmək üçün işçilərinin və özünə məxsus yüklərinin daşınmasında istifadə olunan avtomobil nəqliyyatı vasitələri sadələşdirilmiş vergiyə cəlb edilmir və bu nəqliyyat vasitələri üçün heç bir haqq ödənilmədən «Xüsusi fərqlənmə nişanı» alınır. Bu nişanı almış vergi ödəyiciləri avtomobil nəqliyyatı vasitələrini satarkən və ya icarəyə verərkən, habelə digər məqsədlər üçün istifadə edərkən ən azı 1 iş günü əvvəl nişanı geri qaytarmalıdır. Vergi ödəyicisi işçi heyətini və özünə məxsus yükləri daşımaq üçün yeni avtonəqliyyat vasitəsi aldıqda, həmin nəqliyyat vasitələri müvafiq qaydada qeydiyyata alındıqdan sonra 5 gün ərzində Nəqliyyat Nazirliyinə bu barədə müəyyən edilmiş formada məlumat təqdim etməlidir.

*«Fərqlənmə nişanı» olmadan avtonəqliyyat vasitələri ilə sərnişin və yükdaşımaları həyata keçirən şəxslərə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq olunur*

«Fərqlənmə nişanı» və «Xüsusi fərqlənmə nişanı» vergi ödəyicisi olan hüquqi şəxsin tam adı və ya fiziki şəxsin adı, atasının adı, soyadı; vergi ödəyicisinin VÖEN-i; nişanın qüvvədə olma müddəti; avtonəqliyyat vasitəsinin markası və dövlət qeydiyyatı nişanı; avtonəqliyyat vasitəsində oturacaq yerlərinin sayı kimi məlumatları özündə əks etdirir.

**Fəxriyyə İKRAMQIZI**

vergi cinayətləri

# Vergidən yayınma cinayət məsuliyyəti yaradır

Bəzən sonradan edilən etiraflar, yaşanan peşmançılıq hissi gec olur, insanın öz məsuliyyətsiz hərəkəti ucbatından çəkdiyi sarsıntılar, doğmaları və ətrafı üçün yaratdığı mənəvi gərginlik vəziyyəti dəyişmir. Sahibkar İlham Nağıyev, görünür, bu aydın həqiqəti unutduğuna görə cinayət məsuliyyətinə cəlb olunub.

...Onun əsas fəaliyyəti müxtəlif adda təsərrüfat mallarının alqı-satqısı, xidmət işlərinin görülməsindən ibarət idi. Lakin rəhbəri olduğu bir neçə müəssisədə vergi qanunvericiliyinin tələblərini pozması ona baha başa gəldi. Vergi orqanı əməkdaşlarının qanun çərçivəsində həyata keçirdikləri səyyar yoxlamalar zamanı sahibkar İ.Nağıyevin «Mona Servis» MMC-də vergi bəyannamələrini saxtalaşdıraraq real gəlirlərini gizlətməyə çalışdığı, vergi fırıldaqçılığı ilə məşğul olduğu aşkar edildi. Məlum oldu ki, sözügedən MMC-də 2077,27 manat məbləğində vergilər dövlət büdcəsinə ödənilməkdən yayındırılıb. Beləliklə, fakt əsasında Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentində CM-in 213.1-ci maddəsi ilə cinayət işi başlandı. İş materiallarından da göründür ki, İ.Nağıyev MMC-nin direktoru vəzifəsini daşıyarkən maliyyə-təsərrüfat fəaliyyətinin uçotunu özü həyata keçirərək baş verən bütün qanunsuz əməliyyatlara şəxsən rəhbərlik edib. Müəssisədə qeyri-rəsmi işə cəlb etdiyi şəxslərin işlərini özü aparıb və bununla da vergi pozuntularına səbəb olan bütün cinayət əməllərinə cavabdehlik daşıyıb.

İ.Nağıyevin rəhbərlik etdiyi digər müəssisədə - «Orfo Group» MMC-də də mühasibat sənədlərinin saxtalaşdırıldığı, vergi bəyannamələrindəki məlumatların qəsdən təhrif olunduğu müəyyənləşib. Vergi orqanlarının həmin fakt üzrə apardıqları araşdırmalar zamanı müəssisədə 5821,51 manat məbləğində vergilərin dövlət büdcəsinə ödənilməkdən yayındırılması aşkar olunub. Beləliklə, toplanmış materiallara əsasən, onun barəsində CM-in 213.1-ci maddəsi ilə daha bir cinayət işinin istintaqı başlanıb və «başqa yerə getməmək barədə iltizam» tədbiri seçilib. İstintaqın gedişi zamanı açılmış cinayət işləri bir icraatda birləşdirilib.

Şahid qismində dindirilən şəxslərin ifadələri, alqı-satqı müqavilələri və bank köçürmələri, çeklər, mühasibat sənədləri, məhkəmə-mühasibat ekspertizasının rəyləri və digər maddi sübutlar əsasında İlham Nağıyevin törətdiyi cinayət əməlləri tam sübuta yetirilib. Yasamal Rayon Məhkəməsinin çıxardığı hökmə əsasən, o, dövlət və yerli özünüidarəetmə orqanlarında vəzifə tutmamaq şərti ilə 1 il 6 ay islah işlərinə cəlb olunub.

**ELBRUS**

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam etdiririk. Bu dəfə yeni hesablar planında 201 saylı «Xammal və materiallar» hesabı üzrə materialların məxarici üzrə əməliyyatlardan materialların məhsul istehsal edilməsi üçün istehsalata (istehsalat sexinə) silinməsi (buraxılması), materialların daxili inzibati sahədə istifadə edilməsi ilə bağlı əməliyyatlara nəzər yetirəcəyik. Göstərilən nümunələr şərti və öyrətmə xarakteri daşıyır.

***Misal.*** Müəssisə 2015-ci ilin yanvar ayında ƏDV ilə birlikdə 5900 (əsas hissə 5000 manat + ƏDV 900 manat) manat dəyərində (nağdsız qaydada VHF əldə etməklə) materiallar alınmışdır. Fevral ayında 3000 manat dəyərində materiallar hazır məhsul istehsal edilməsi üçün istehsalat sexinə buraxılmış, 400 manat dəyərində materiallar isə zərurət yarandığına görə, ofisdə inzibati ehtiyacları təmin etmək üçün məsul şəxsə təhvil verilmişdir. Fevral ayının sonunda istehsalat sexinin aylıq hesabatlarına əsasən, istehsalatdan hazır məhsul çıxarılmamışdır, yəni hələ tam hazır olan məhsul yoxdur. Ofisə verilən materiallardan isə 270 manat dəyərində olanları ofisdə inzibati işçilər tərəfindən tam istifadə olunmuş, qalanları isə hələlik ofisdə istifadə edilməsi üçün saxlanılmışdır. Bu əməliyyatlarla bağlı veriləcək ikili yazılışların təyin etmək tələb olunur.

| Tarix | Hesabın №-si və adı | Əməliyyatın məzmunu | Debet (məbləğ) | Kredit (məbləğ) |
|---|---|---|---|---|
| Yanvar 2015 | 201, Xammal və materiallar | Materiallar alınıb (müştəridən tam təhvil alınıb) (ƏDV-siz məbləğ) | 5000 | |
| Yanvar 2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Materiallar alınıb (müştəridən tam təhvil alınıb) (ƏDV-siz məbləğ) | | 5000 |
| Yanvar 2015 | 241, Əvəzləşdirilən ƏDV | Alınmış materialların dəyərinin üzərindəki ƏDV uçota alınır | 900 | |
| Yanvar 2015 | 531, Malsatan və podratçılara qısamüddətli kreditor borcları | Alınmış materialların dəyərinin üzərindəki ƏDV uçota alınır | | 900 |
| Fevral 2015 | 202, İstehsal məsrəfləri | Materiallar hazır məhsul istehsal edilməsi üçün daxili qaimə tərtib olunmaqla anbardan (məsələn, anbardar işləyən maddi-məsul şəxsdən) istehsalat sexinə (sexdə işləyən maddi-məsul şəxsə, məsələn, sex rəisinə) təhvil verilib | 3000 | |
| Fevral 2015 | 201, Xammal və materiallar | Materiallar hazır məhsul istehsal edilməsi üçün daxili qaimə tərtib olunmaqla anbardan (məsələn, anbarda işləyən maddi-məsul şəxsdən) istehsalat sexinə (sexdə işləyən maddi-məsul şəxsə, məsələn, sex rəisinə) təhvil verilib | | 3000 |
| Fevral 2015 | 201, Xammal və materiallar | Materiallar inzibati məqsədlər üçün daxili qaimə tərtib olunmaqla anbardan ofisdə işləyən məsul şəxsə təhvil verilib (bir maddi-məsul şəxsdən digər maddi-məsul şəxsə ötürmə) | 400 | |
| Fevral 2015 | 201, Xammal və materiallar | Materiallar inzibati məqsədlər üçün daxili qaimə tərtib olunmaqla anbardan ofisdə işləyən məsul şəxsə təhvil verilib (bir maddi-məsul şəxsdən digər maddi-məsul şəxsə ötürmə) | | 400 |
| Fevral 2015 | 701, İnzibati xərclər | Ofisdə tam istifadə olunan materiallar daxili akt tərtib olunmaqla ofisdə işləyən maddi-məsul şəxsin üzərindən silinib | 270 | |
| Fevral 2015 | 201, Xammal və materiallar | Ofisdə tam istifadə olunan materiallar daxili akt tərtib edilməklə ofisdə işləyən maddi-məsul şəxsin üzərindən silinib | | 270 |

Cədvəldən göründüyü kimi, anbardan cəmi 3400 (3000 + 400) manat dəyərində material buraxılmasına baxmayaraq, fevral ayında xərc kimi tanınan dəyər 270 manatdır. Fevral ayında hazır məhsul istehsalı başa çatdırılmadığına görə, həmin ayın sonuna istehsalat sexində məhsul istehsalı prosesində olan 3000 manat dəyərində və ofisdə hələ 130 (400 - 270) manat dəyərində faktiki olaraq qalan materiallar (cəmi 3130 (3000 + 130) manat dəyərində materiallar), həmçinin anbarda qalan 1600 (5000-3400) manat dəyərində materiallar mühasibat balansında fevral ayının sonuna aktiv (ehtiyat) kimi əks olunacaqdır. Ofisdə istifadə edilən 270 manat dəyərində materiallar isə fevral ayında «inzibati xərc» adı altında faktiki xərc kimi əks olunacaqdır.



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

## Audit

Vergi orqanına təqdim edilən mənfəət vergisi bəyannaməsində vergi məqsədləri üçün xərclərin gəlirdən çox olması və bunun da nəticəsində zərərin yaranması mənfəət vergisi bəyannaməsində əks etdirilən göstəricilərin həqiqiliyi və vergi ödəyicisinin fəaliyyəti barədə ilk baxışda mənfi rəy formalaşdıra bilər. Lakin belə halların mümkünlüyü labüddür və bu məsələdə xüsusi olaraq xərclərin tərkibinə diqqət yetirilməlidir. Bəzən elə maliyyə ili olur ki, vergi tutma məqsədləri baxımından müəssisənin heç bir satışı (işi, xidməti), yəni gəliri yoxdur, lakin müəssisə tərəfindən əsas vəsaitlərə amortizasiya hesablaması aparılmış, inzibati istiqamətdə rəhbər işçilərə əmək haqqı hesablanmış, ofisin telefon və elektrik xərcləri ödənilmişdir. Sual oluna bilər ki, cari ildə çəkilən belə xərclərin gəliri olmayan həmin il üçün təqdim olunan mənfəət vergisi bəyannaməsində əks etdirilməsi mümkündürmü, əgər mümkündürsə, bu xərclərin məcmusu bəyannamənin 1№-li Əlavəsində hansı sətirdə əks etdirilməlidir? Qeyd etmək lazımdır ki, gəlir olmadan yalnız xərclərin əks etdirməklə (və ya gəliri xərclərə nisbətdə az olmaqla) bəyannamə təqdim edən mənfəət vergisi ödəyicilərinə vergi orqanı tərəfindən ünvanlanan vergilərlə bağlı kameral qaydada uyğunsuzluq məktublarında çox hallarda belə məsələlərin açıqlanması tələb olunur.

Belə uyğunsuzluqlara aydınlıq gətirilməsi üçün Vergi Məcəlləsinin 108-ci maddəsinin tələbinin düzgün başa düşülməsinə və təhlilinə fikir vermək lazımdır. Vergi Məcəlləsinin 108-ci maddəsində göstərilir ki, «bu fəslə uyğun olaraq gəlirdən çıxılmayan xərclərdən başqa gəlirin əldə edilməsi ilə bağlı olan bütün xərclər, həmçinin qanunla nəzərdə tutulmuş icbari ödənişlər gəlirdən çıxılır». Bu maddədə «gəlirin əldə edilməsi ilə bağlı olan bütün xərclər» ifadəsini vergi ödəyiciləri arasında anlaşılmazlıqla qarşılaşılanlar vardır. Yəni burada yalnız «əldə edilən gəlirlə əlaqəli xərclər»dən söhbət getdiyini və ya «gəlir yoxdursa xərc də qəbul edilmir» kimi düşünənlər az deyildir. Vergi məqsədləri üçün gəlirdən çıxılmasına yol verilən xərclər üzrə bu anlaşılmazlığa yol açan 3 yanaşma üzərində dayanmaq olar:

**1-ci yanaşma.** Cari hesabat dövründə yalnız faktiki əldə edilmiş gəlirin alınması ilə bağlı olan (yalnız həmin gəlirə aidiyyəti olan) belə xərclər gəlirdən çıxıla bilər.Yəni gəlir yoxdursa hər hansı çəkilmiş xərc gəlirdən çıxıla bilməz və ya gəlir azdırsa, yəni xərcin həcminə adekvat deyildirsə (xərc çoxdursa), əldə edilmiş az hesab edilən gəlirə müvafiq xərclər (çox çəkilmiş xərclərin yalnız bir hissəsi) gəlirdən çıxıla bilər.

**2-ci yanaşma.** Cari hesabat dövründə gəlirin olub-olmamasından, yaxud da gəlirin az və ya çox olub-olmamasından asılı olmayaraq çəkilən bütün belə xərclər gəlirdən çıxıla bilər.

**3-cü yanaşma.** Cari hesabat dövründə gəlir yoxdursa yalnız inzibati-idarəetmə, kommersiya, maliyyə və fövqəladə xarakterli və satışın (işin, xidmətin) birbaşa maya dəyərinə aid edilməyən sair əməliyyat xarakterli, lakin gəlirdən çıxılan statuslu belə xərclər gəlirdən çıxıla bilər. Cari hesabat dövründə gəlir vardırsa, yalnız gəlirə aidiyyəti olan satışın (işin, xidmətin) bir başa maya dəyərinə aid edilən əsas əməliyyat xərcləri və həmçinin inzibati-idarəetmə, kommersiya, maliyyə və fövqəladə xarakterli və satışın (işin, xidmətin) bir başa maya dəyərinə aid edilməyən sair əməliyyat xarakterli, lakin gəlirdən çıxılan statuslu belə bütün xərclər gəlirdən çıxıla bilər.

Bəs bu 3 yanaşmadan hansı doğrudur? Əslində 3-cü yanaşma daha doğrudur. Çünki vergi məqsədləri üçün ümumi qaydada gəlirdən çıxılmasına yol verilən, lakin faktiki əldə edilən gəlirlə bağlı olmayan (birbaşa cari gəlirə aidiyyəti olmayan) xərclərin hesabat dövründə gəlirdən çıxılan xərclərə aid edilməsinə hər hansı qanuni qadağa qoyulmayıb. Məsələn, gəlirdən çıxılan bütün vergi xərclərini (əmlak vergisi, torpaq vergisi, yol vergisi), icarə xərcləri, inzibati-idarəetmə və kommersiya (mühafizə, bank xidməti, rabitə, reklam və digər) xərcləri gəlirin faktiki olaraq əldə edilmədiyi dövrdə də vergi məqsədləri üçün xərc kimi qəbul edilməsi mümkündür və bunu qanun pozuntusu kimi hesab etmək düzgün deyildir. Əsas odur ki, belə xərclər vergi məqsədləri üçün ümumi qaydada gəlirdən çıxılmasına yol verilə bilən xərc statusunda olsun. Məsələn, qeyri-sahibkarlıq istiqamətində çəkilən (məsələn, ödənilmiş maliyyə yardımı), gələcək dövrün xərcləri kimi hesab edilən və (və ya) Vergi Məcəlləsinin müvafiq müddəaları üzrə gəlirdən çıxılmayan xərc statuslu belə xərclər (məsələn, əyləncə xərcləri, maliyyə sanksiyası) vergi məqsədləri üçün gəlirdən çıxıla bilməz və bəyannamənin xərclər hissəsində də əks etdirilə bilməz.

Cari hesabat dövründə mənfəət vergisi bəyannaməsində xərc göstəricilərinin məbləğlərinin gəlirdən çox və ya daha çox əks etdirilməsi və bunun nəticəsində də cari ildə zərərin olması və ya daha çox olması mümkün bir haldır və bu qəbul ediləndir. Əsas odur ki, bəyannamədə əks etdirilən xərclər həqiqi (sənədli) olsun və gəlirdən çıxılmayan xərclərdən və gələcək dövrün xərclərindən olmasın. Əgər bəyannamədə göstərilən xərclər və gəlirlər həqiqəti əks etdirirsə, məntiqlə, müəssisənin zərərlərinin yaranması illərcə davamlı ola bilməz. Bu hal müəssisənin müflisləşməsinə gətirib çıxaracaq və ya Mülki Məcəllənin hüquqi şəxsin nizamnamə kapitalı və xalis kapitalı ilə əlaqədar müddəalarının tələbinin pozulması kimi qiymətləndirilə bilər.

Mənfəət vergisi bəyannaməsində yaranan zərər (vergi məqsədli zərər) məbləğlərini bəyannamənin 1№-li Əlavəsində əgər əvvəlki illərdən bölüşdürülməmiş mənfəət və ya kapital ehtiyatları qalığı yoxdursa (və ya azdırsa) «digər aktivlər» kimi əks etdirmək olar, baxmayaraq ki, mahiyyətinə görə zərər aktiv deyildir, çünki belə zərər kapital məbləğini azaldan hadisədir. Lakin Əlavədə bu cür zərər məbləğləri üçün ayrıca sətir (göstərici) yeri nəzərdə tutulmamışdır və bu cür vəziyyət uyğunsuzluğa yol açandır. Bəzən bu cür zərər məbləğlərini Əlavədə «gələcək dövrün xərcləri» kimi də əksetdirən vergi ödəyicilərinə rast gəlmək olur. Bu cür əks etdirmə mahiyyətinə görə düzgün deyildir. Lakin audit zamanı «çarəsizlik»dən zərər məbləğini belə əks etdirdiklərini bildirən vergi ödəyiciləri «uyğunsuzluq» hallarının açıqlanmasına da hazır olmalıdırlar.

## vergi təqvimi

| OKTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | 31 | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 oktyabr - «(1)» və «(2)».

20 oktyabr - «(1-1)», «3», «4», «7», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

*Birinci metod:* Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

*İkinci metod:* Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir. Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı, hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# Neft sahəsinin stimullaşdırılması üçün vergilər azaldılmayacaq

Norveçin Baş naziri Erna Sulberq hökumətin neft sahəsinin stimullaşdırılması üçün vergiləri aşağı salmağı planlaşdırmadığını bəyan edib: «Hələlik belə bir təklif yoxdur. Biz, əlbəttə, köhnə yataqların işlənilməsini və hasil edilən ehtiyatların mümkün qədər çox olmasını istərdik.



Artıq uzun illərdir ki, bu məqsədlə yeni texnologiyalardan istifadə edirik. Lakin əgər hansısa layihələr kommersiya cəhətdən səmərəli olmayacaqsa, bu vəziyyəti düzəltmək üçün vergitutma sistemini dəyişdirmək niyyətində deyilik».

Hökumət başçısının sözlərinə görə, 2003-2004-cü illərdə Şimal dənizindən hasil olunan neftin qiyməti bir barel üçün 30 dollar səviyyəsində idi. O zaman neft sektoru fəal şəkildə vergi güzəştləri əldə etməyə çalışırdı. Baş nazir vurğulayıb ki, hökumət həmin vaxtlarda neft sektorunun təzyiqinə davam gətirməsəydi, sonrakı 10 il ərzində dövlət külli miqdarda gəlirlərdən məhrum olacaqdı: «Əlbəttə, bu vəziyyət neft şirkətlərinin narazılığına səbəb olmuşdu, lakin hökumət xalqa çatacaq gələcək gəlirləri daha əhəmiyyətli hesab edərək neft biznesinin qəzəbinə dözməyə çalışdı».

Ernst & Young beynəlxalq konsaltinq şirkətinin dəyərləndirməsinə əsasən, 2014-cü ildə Norveçin neft sektorunda çalışan şirkətlərin ümumi gəliri 470 milyard krona (60 milyard dollara yaxın) çatmışdır. 2015-ci ildə bu göstəricinin 7% azalacağı gözlənilir. Ölkədə neft-qaz sahəsinin ÜDM-də payı isə 25% təşkil edir.

## Xəbər lenti

**Sinqapur**da 2014-2015-ci maliyyə ili üzrə vergi yığımları rekord səviyyədə olub: 43,4 mlrd. Sinqapur dolları (30,5 mlrd. ABŞ dolları). İllik hesabata görə, bu məbləğin yarıdan çoxu) gəlir vergisinin hesabına yığılıb.

**ABŞ**-ın Karolina Universiteti mütəxəssislərinin hesabatında göstərilir ki, ölkədə elektrik avtomobilləri, günəş panelləri və «yaşıl enerji» ilə işləyən digər texnologiyalar üçün tətbiq olunan vergi güzəştlərindən ölkənin ən zəngin vətəndaşları faydalanırlar, bu güzəştlərin sıravi insanlara aidiyyəti yoxdur.

**Avropa İttifaqı** Belçikada transmilli şirkətlərə ədalətsiz vergi imtiyazları tətbiq edilməsindən şübhələnir. Bu səbəbdən də Belçika ilə bağlı təhqiqatlara başlanılıb.

**Litva**da real ƏDV yığımı ilə nəzəri cəhətdən yığılması mümkün olan ƏDV məbləği arasında böyük fərq var. Avropa Komissiyasının Aİ-yə üzv dövlətlərdə vergi islahatlarına həsr etdiyi hesabatda qeyd olunub ki, bu, ƏDV-dən ciddi şəkildə yayınmanı nümayiş etdirir.

**İtaliya**nın daşınmaz əmlaka vergi sistemi Fransa, Almaniya, Böyük Britaniya və İspaniya ilə eyni olsa da, burada verginin dərəcəsi daha yüksəkdir və hazırda ev sahibləri ÜDM-in 1,5%-i qədər vəsait ödəyirlər. Mütəxəssislər hesab edirlər ki, bu, ölkədə əmlak bazarının inkişafına mane olur.

**Belarus** Prezidenti Aleksandr Lukaşenko vergi güzəştlərinin verilməsinə qarşı çıxaraq bildirib ki, hazırkı iqtisadi vəziyyətlə əlaqədar ölkədə güzəştlər yalnız prioritet fəaliyyət növləri üçün saxlanıla bilər.

**Yaponiya** maliyyə sabitliyinə nail olmaq üçün vergi islahatları keçirməyi vacib hesab edir. İƏİT-nin son hesabatında göstərilib ki, qurumun tərkibinə daxil olan digər ölkələrə nisbətən Yaponiyada yığım xeyli azdır. Hesabat müəllifləri məsləhət görüb ki, istehlak vergisi kimi iqtisadiyyatın böyüməsinə az təsir edən vergilər vasitəsilə büdcə gəlirlərini artırmaq olar.

**Avropa Komissiyası** Yunanıstandan tələb edib ki, həm Aİ üzvü olan digər ölkələrdən alınan spirt məhsullarına tətbiq olunan aksiz sxemini, həm də ölkənin özündə istehsal edilən məhsullara tətbiq olunan aksiz sxemini dəyişdirsin. Komissiyanın rəyinə görə, Yunanıstanda yerli istehsala kəskin imtiyaz verən hər iki sxem Aİ-nin aksizlərlə bağlı qanunvericiliyinə ziddir.

**Çin Xalq Respublikası**nda ətraf mühitin qorunmasını stimillaşdırmaq məqsədilə kiçiktutumlu mühərriklə (1,6 litrdən az) işləyən nəqliyyat vasitələrinə müvəqqəti vergi güzəşti tətbiq etmək qərara alınıb.

Xarici ölkələrin təcrübəsi

# İspaniya Krallığının vergi sistemi: *mənfəət vergisi*



**Əvvəli ötən sayımızda**

***Kanar adaları xüsusi zona rejimi (ZEC)***

Güzəşt rejimindən istifadə etmək üçün müəssisə:

- Qran Kanariya və Tenerife adalarında qeydiyyatdan keçdikdən sonra növbəti 2 il ərzində əsas vəsaitlərin əldə edilməsinə 100 min avro (130 min ABŞ dolları) (kiçik adalarda 50 min avro) investisiya qoymalı;
- qeydiyyatdan keçdikdən sonra ilk 6 ay ərzində ən azı 5 yeni iş yeri (kiçik adalarda 3), müəssisə fəaliyyətə başladıqdan və rejimin tətbiqindən sonra ən azı 5 yeni iş yeri təqdim etməli;
- ZEC konsorsiumuna öz fəaliyyət sahəsi, ödəmə qabiliyyəti, beynəlxalq rəqabətlilik və Kanar adalarının sosial və iqtisadi inkişafına hansı töhfəni verməsi barədə memorandum təqdim etməli;
- Kral fərman-qanununun əlavəsində qeyd olunmuş fəaliyyət növləri ilə - balıqçılıq, ərzaq tədarükü, pivə, tütün hazırlanması, trikotaj, kağız sənayesi, nəşriyyat, redaktə işləri, kimya sənayesi, təkrar emal, topdansatış və agent fəaliyyəti, nəqliyyat, araşdırma-inkişaf (R&D), kompüter xidmətləri sahəsi üzrə istehsal, idarəetmə, çatdırılma fəaliyyəti ilə məşğul olmalıdır.

Qeyd olunmuş şərtlərə cavab verən müəssisələr aşağı - 4% dərəcəli mənfəət vergisi dərəcəsindən bəhrələnə bilərlər. Aşağı vergi dərəcəsi ilə vergiyə cəlb olunan mənfəət bazası müəssisənin yeni yaratdığı iş yerlərinin sayından asılıdır, belə ki, 3-8 işçisi qeyd olunan sahələrdə çalışan müəssisə 1125 min avro (1462 min ABŞ dolları) vergitutma bazasına 4% mənfəət vergisini tətbiq edə bilər. Sənaye fəaliyyəti ilə məşğul olub ümumi işçi sayı 100-dən artıq olan müəssisələr 120 mln. avroluq (156 mln. ABŞ dolları) mənfəət vergisi bazasına azaldılmış dərəcə tətbiq edə bilərlər.

Qeyd olunan müəssisələrin siyahıdakı «vergi cənnətləri»nin rezidenti olmayan qeyri-rezidentlərə ödədiyi faiz və dividendlər də ödəmə mənbəyində vergiyə cəlb olunmur. Lakin bu azadolma xüsusi hallarda nəzərdə tutulmuşdur və Aİ-nin «ana-törəmə direktivi»nə uyğun olmalıdır.

***Seuta və Melilyadan gəlirlər:*** İspaniyanın Şimali Afrikadakı anklav əraziləri olan Seuta və Melilyadan əldə edilən gəlir üzrə mənfəət vergisinin öhdəliyi 50% məbləğində azaldılır.

***Bask ölkəsi və Navarra:*** Bask ölkəsinin ərazisində bir sıra vergi güzəştləri - mənfəət vergisinin 28% dərəcə ilə tətbiqi mümkündür. Kiçik müəssisələr Alava, Vizcaya və Quipuzcouda fəaliyyət göstərdiyi halda, 24% dərəcə ilə vergiyə cəlb olunur.

Navarrada ümumi mənfəət vergisinin dərəcəsi 30%-dir. Lakin kiçik və orta həcmli müəssisələrə bu hallarda aşağı dərəcə tətbiq olunur:

- müəssisənin xalis gəlirləri 1-9 mln. avro (1,3- 11,7 mln. ABŞ dolları) arasında olub vergi dövrü başlayandan əvvəlki 12 aylıq dövrdə orta işçi sayı ilə həmin dövrdən sonrakı 12 ay ərzindəki işçi sayı ilə orta hesabla ən azı 1 işçi az olmazsa, mənfəət vergisi 28% dərəcə ilə tətbiq edilir;
- müəssisənin xalis gəlirləri 1 mln. avrodan azdırsa (1,3 mln. ABŞ dolları), vergi dövrü başlayandan əvvəlki 12 aylıq dövrdə orta işçi sayı ilə həmin dövrdən sonrakı 12 ay ərzindəki işçi sayı ilə orta hesabla ən azı 1 işçi az olmazsa, mənfəət vergisi 23% dərəcə ilə tətbiq edilir.

***Yeni yaradılmış müəssisələr***

01.01.2013-cü ildən sonra yaradılmış müəssisələr mənfəət vergisini:

- ilk 300 min avro (390 min ABŞ dolları) mənfəətindən 15% dərəcə ilə;
- bundan artıq hissədən 20% dərəcə ilə ödəyirlər.

Qeyd olunan güzəştlər aşağıdakı hallarda tətbiq edilmir:

- müəssisə qrup üzvüdürsə;
- müəssisə əvvəllər qarşılıqlı asılı şəxslər və ya subyektlərin məşğul olduqları iqtisadi fəaliyyətlə məşğuldursa;
- müəssisə əvvəllər kapitalının 50%-nin (və ya bundan artıq) fiziki şəxsə məxsus olan eyni növ fəaliyyətlə məşğuldursa.




*İcmalı Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.XVIII əsr Azərbaycan şairi; 2.Xəzər rayonunda qəsəbə; 3.Azərbaycan dramatik teatr və kino aktyoru, Azərbaycan və Rusiyanın xalq artisti. «Uzaq sahillərdə» filmində Mehdi obrazını canlandıran aktyorun adı; 4.Yunan mifologiyasında Zevs və Okeanida Plutonun oğlu. Həmçinin, kimyəvi element (metal); 5.Əsasən oyun zamanı qələbə təsiri ilə yaranan yüksək emosiya, oyuna qeyri-adi maraq; 6.Bakı metrosunun Q.Qarayev stansiyasının keçmiş adı; 9.Qədim hind klassik musiqi növlərindən biri; 13.Gürcülərdə ənənəvi tünd spirtli içki; 15.Qiymətli kağızların emissiyasını qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirən qurum; 16.Respublikamızda rayon; 17. Ensiz, uzun, yaxud üçbucaq şəklində kiçik bayraq; 18.Makedoniyanın ən uzun, Yunanıstanın əsas çaylarından biri; 20.Mərakeşin paytaxtı; 21.Xəmirdən hazırlanan içlikli qənnadı məhsulu. **Soldan sağa:** 1.ABŞ-ın paytaxtı; 5.Türk mifologiyasında heyvan tanrısı; 7.Səhmdar cəmiyyətinin mənfəətinin hər il səhmdarlara ödənilən hissəsi; 8.Fransanın şimal-qərbində, Yuxarı Normandiya əyalətində şəhər; 10.Hər hansı bir şirkətin məhsullarını topdan alıb, sonradan pərakəndə və kiçik topdan satılması ilə məşğul olan hüquqi və ya fiziki şəxs; 11.Hər hansı sonuncu qurğunu və ya detalı, başqa birləşmə yolu olmadığından, əvvəlki ilə əlaqələndirmək üçün nəzərdə tutulmuş qurğu; 12.Nigeriyada şəhər; 14.XIX əsrdə yaşamış, şeirləri Avropada daha çox nəşr edilmiş Azərbaycan şairi; 19.Gürcüstan Respublikasının Bolnisi rayonunda azərbaycanlıların yaşadığı kənd; 21.Latın dilində «birinci» deməkdir. Sovet dövründə populyar siqaret markası; 22.İtaliyada şəhər; 23.İrqi ayrı-seçkiliyin ən kəskin forması. Bir qrup əhalinin yaşamaq üçün zəruri olan hər şeydən məhrum edilməsi. Soyqırımın bir növü; 24.Simli musiqi aləti; 25.Amerika qitəsindəki iri çaylarda yaşayan timsah növü.



*Amerika qitəsindəki iri çaylarda yaşayan timsah növü*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Sovxoz; 2.Ruletka; 3.Mason; 4.Odessa; 5.Radon; 6.Pitbul; 9.Evli; 13.Ajio; 15.Palmira; 16.Şilyan; 17.Omonim; 18.Diktat; 20.İrbis; 21.Raunq. **Soldan sağa:** 1.Stromboli; 5.Rep; 7.Velaskes *(Dieqo)*; 8.Ad·t; 10.Oktan; 11.Sivanmu; 12.Qazax; 14.Hippi; 19.İridium; 21.Ralli; 22.Yoba; 23.İnturist; 24.Nis; 25.İmmiqrant.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22
Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.
Tiraj: 14000

## idman

# Beynəlxalq Velosipedçilər İttifaqının Konqresi keçirilib

ABŞ-ın Riçmond şəhərində Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) illik konqresi keçirilib. Konqresdən bir gün əvvəl isə Avropa Velosipedçilər İttifaqının (UEC) Rəhbər Komitəsinin iclası olub. Rəhbər Komitənin iclasında çıxış edən Avropa Velosipedçilər İttifaqının prezidenti David Lappartien sonuncu dəfə Komitənin Avropa Oyunları zamanı Bakıda toplandığını xatırladıb. O, məruzəsində «Bakı-2015» ilk Avropa Oyunlarının çox yüksək səviyyədə keçirildiyini diqqətə çatdıraraq, birinci Avropa Oyunlarının velosiped yarışlarının təşkilində yüksək fəallıq nümayiş etdirmiş Azərbaycan Velosiped İdmanı Federasiyasına (AVİF) UEC adından dərin təşəkkürünü bildirib.

Sonra Beynəlxalq Velosipedçilər İttifaqının illik konqresində Avropa qitəsi adından səsvermə hüququna malik nümayəndələr seçilib. Qeyd edək ki, 50 milli federasiyanı özündə birləşdirən Avropa Velosipedçilər İttifaqı UCI-nin Konqresində səsvermə hüququna malik 14 nəfərlə təmsil olunur. Bu il seçilmiş 14 nümayəndədən biri də Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov olub.

Konqresdə iştirak edən Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti Brayn Kukson müzakirəyə 16 məsələnin çıxarıldığını bildirib, ötən dövrdə görülmüş işlər və qarşıda duran məsələlər barədə ətraflı məlumat verib. Sonra UCI-nin Rəhbər Komitəsinin hesabatı, 2014-cü ilin büdcəsinin icra vəziyyəti, müstəqil auditorların hesabatı dinlənilib və 2016-cı il üçün büdcə təsdiq edilib. Daha sonra UCI-nin Rəhbər Komitəsinin yeni üzvü seçilib və bir sıra ölkələrin Beynəlxalq Velosipedçilər İttifaqının üzvlüyünə daxil olmaq barədə ərizələrinə baxılaraq təsdiq edilib.

Konqres zamanı «Rio-2016» Olimpiya Oyunlarının təşkili ilə bağlı R'OCOG (2016 Organising Comittee for the Olimpic and Paralympic Games) «Rio-2016» Olimpiya və Paralimpiya oyunlarının Təşkilat Komitəsinin icraçı direktoru Alberto Gimaraes geniş təqdimatla çıxış edib və Oyunlara hazırlığın gedişi barədə məlumat verib.

Tədbirdə 2016-cı ilin oktyabrında Qətərdə keçiriləcək şose velosipedi üzrə dünya çempionatı ilə bağlı məsləhətləşmələr də aparılıb. «Doha-2016» dünya çempionatının Təşkilat Komitəsinin sədri şeyx Xalid bin Əli Əl Taninin və Qətərin digər məsul nümayəndələrinin mundiala hazırlıqla bağlı təqdimatları maraqla qarşılanıb.

# Akrobat-gimnastlarımızın Avropa çempionatında uğuru

Almaniyanın Riza şəhərində akrobatika gimnastikası üzrə 27-ci Avropa çempionatının qalibləri müəyyənləşib. Azərbaycan Gimnastika Federasiyasından bildiriblər ki, yarışlarda ölkəmiz böyüklərin proqramı ilə çıxış edən qadın qrupu ilə təmsil olunub. Aynur Hüseynova, Lalə Hüseynova və Nərmin Ramazanovadan ibarət üçlük çoxnövçülük yarışlarında dördüncü yerdə qərarlaşıb. Lalə Hüseynovanın zədəli olmasına baxmayaraq, gimnastlarımız beşinci yeri tutduqları birinci Avropa Oyunlarından ötən qısa dövrdə bu növ üzrə daha yaxşı nəticə əldə ediblər.

Təsnifat mərhələsinin nəticələrinə əsasən, qadın qrupu hər iki finala vəsiqə qazanıb. Balans hərəkətlərində qrup 27,640 xal toplayaraq üçüncü sırada qərarlaşan Rusiya təmsilçilərindən cəmi 0,06 xal geri qalıb. Sürətli hərəkətlərin finalında qadın qrupumuz 5-ci yerdə qərarlaşıb.

# Şahmat üzrə Dünya kubokunun qalibi müəyyənləşdi



Sentyabrın 10-dan Azərbaycan paytaxtında start götürən «Dünya kuboku-2015» oktyabrın 5-də başa çatıb. 45 ölkədən 128 şahmatçının qüvvəsini sınadığı bu mötəbər turnirdə Azərbaycan qrossmeysterləri Teymur Rəcəbov, Şəhriyar Məmmədyarov, Rauf Məmmədov, Qədir Hüseynov, Eltac Səfərli və Vasif Durarbəyli də iştirak ediblər.

İlk turlardan gərgin mübarizə şəraitində keçən qarşılaşmalarda həmyerlilərimizin uğurlu çıxışı mütəxəssislərin diqqətindən yayınmayıb. Xüsusilə Şəhriyar Məmmədyarovun dörddəbir finala qədər güclü rəqibləri üzərində inamlı qələbəsi həmyerlimizin daha da irəliləyəcəyinə ümid yaradırdı. Lakin bu mərhələdə taybreykdə büdrəyən Azərbaycan şahmatçısı turnirdə mübarizəni dayandırmağa məcbur oldu.

Dünya kubokunun finalında isə Rusiyanın tanınmış qrossmeysterləri Sergey Karyakin və Pyotr Svidler üz-üzə gəliblər. «Rus dueli» kimi tarixə düşən final qarşılaşmasında inanılmaz iradə nümayiş etdirən Sergey Karyakin, ilk iki oyunda məğlub olmasına baxmayaraq, həmyerlisi Pyotr Svidleri məğlub etməyi bacarıb. Dörd klassik görüşdən sonra hesab bərabər olduğu üçün (2:2) şahmatçılar mübarizəni taybreykdə davam etdiriblər. Rəqiblər bu dəfə də hərəyə bir qələbə qazandığından 25+10 vaxt nəzarəti rejimində iki oyun keçirməli olublar. Bu qarşılaşmalarda da qalib müəyyənləşməyib - 1:1. 10+10 vaxt nəzarəti rejimində oynanılan növbəti iki partiyada da şahmatçılar hərəyə bir dəfə qalib gəliblər. Nəhayət, 5+3 vaxt nəzarəti rejimində oynanılan görüşlərdə hər iki partiyanı qələbə ilə başa vuran Sergey Karyakin Dünya kubokunun qalibi adını qazanıb.

Turnirin bağlanış mərasimində iştirak edən Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlyumjinov Bakıda keçirilən bu mötəbər turnirin bir çox cəhətlərinə görə idmanın bu növünün tarixinə düşəcəyini bildirib, yarışların yüksək səviyyədə təşkilinə görə Azərbaycan dövlətinə təşəkkürünü bildirib. Dünya kubokunun sahibi Sergey Karyakin və ikinci yerin mükafatçısı Pyotr Svidler də yarışın yüksək səviyyədə təşkil edildiyinə və şahmatçılara yaradılan şəraitə görə dərin minnətdarlıqlarını bildiriblər.

Sonra finalçıların mükafatlandırılması mərasimi olub. Mükafat fondu 1,6 milyon dollar olan yarışın qalibinə 120 min dollar məbləğində mükafat verilib. Xatırladaq ki, reqlamentə əsasən, finalçılar dünya çempionluğuna iddiaçıların turnirində mübarizə aparmaq imkanı əldə ediblər.

Mərasimdə 2016-cı ildə Bakıda keçiriləcək Şahmat Olimpiadasının rəsmi loqosu da təqdim olunub.

## mozaika

tarixdə bu həftə

# 1 Oktyabr - Beynəlxalq Ahıllar günüdür

1992-ci ildə BMT Baş Məclisinin iclasında ahılların müdafiəsi ilə bağlı qətnamə qəbul olunub və həmin qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabrın 1-i bütün dünyada Beynəlxalq Ahıllar günü kimi qeyd olunur. Bu tarixin dünya səviyyəsində qeyd olunması ahıllara diqqət və qayğının artırılması məqsədi daşıyır.

Beynəlxalq Ahıllar günü ölkəmizdə 1993-cü ildən qeyd olunur. Ümummilli lider Heydər Əliyevin ahıl insanlara, onların problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşmasının nəticəsi olaraq 22 iyun 2001-ci il tarixdə «Ahıllara sosial xidmət haqqında» Qanun imzalayıb. Həmin Qanuna əsasən, ölkədə 70 yaşına çatan Azərbaycan vətəndaşları, habelə ölkəmizdə daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl hesab olunur.

**2015-ci il aprelin 1-nə respublika üzrə əmək pensiyası alan şəxslərin sayı 1.292.040 nəfər təşkil edib. Onlardan yaşa görə əmək pensiyası alanların sayı 783.381 nəfərdir ki, bu da ümumi pensiyaçıların sayına nisbətdə 60,6% təşkil edir. Əlilliyə görə əmək pensiyası alanların sayı 367.489 nəfər və ya ümumi pensiyaçıların sayına nisbətdə 28,5%, ailə başçısını itirməyə görə əmək pensiyası alanların sayı 141.170 nəfər və ya ümumi pensiyaçıların sayına nisbətdə 10,9% təşkil edir.**

Ölkəmizdə yaşlı insanların problemlərinə həssas münasibət bu gün də mövcuddur. Pensiya yaşlı insanların sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin daimi diqqət mərkəzindədir. «Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı»na əsasən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində davamlı olaraq həyata keçirilən islahatlar ölkəmizdə sosial müdafiə sisteminin beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına imkan verir.

texnologiya

# Daha bir möcüzə



3D çap texnologiyalarının hazırlanması və tətbiqi ilə məşğul olan Avstraliyanın «CSIRO» şirkəti döş sümüyü və qabırğaların titan materialından ibarət implantatını yaradıb və xərçəng xəstəliyindən əziyyət çəkən 54 yaşlı xəstəyə implantasiya edib. Döş sümüyü və qabırğalar geometrik formaya malik olduğuna görə, implantasiya üçün daha çox istifadə edilən düz implantatlar vaxt ötdükcə zəifləyə bilər. Bu səbəbdən də ispaniyalı cərrahlar qərara alıblar ki, döş qəfəsinin sarkomasından əziyyət çəkən ispanın anatomik xüsusiyyətləri nəzərə alınmaqla titan materialından 3D çap implantatı ən yaxşı çıxış yoludur.

Həkimlər implantatın konfiqurasiyası sayəsində onu insanın döş sümüyünün sağlam sümüklərinə xüsusi vintlərlə bərkidiblər. Əməliyyat uğurla keçib və 12 gün sonra xəstə evə buraxılıb.

cəmiyyət

# Qocalma sürətlənir

Dünya əhalisinin sürətlə qocalması səhiyyə sistemində əsaslı dəyişikliklər aparılmasını - xəstəliklərin müalicə modellərindən onların profilaktikasına keçməyi və ahılların xüsusi tələbatının nəzərə alındığı kompleks yardım göstərilməsini tələb edir. Dünya Səhiyyə Təşkilatının (DST) qocalma və sağlamlıq barədə yeni məruzəsində belə deyilir.

DST-nin baş direktoru Marqaret Çen deyib: «Tarixdə ilk dəfədir ki, insanların çoxu 60 yaşa qədər və daha çox yaşaya biləcəyinə ümid bəsləyir. Sağlamlıq, səhiyyə sistemləri, onların kadr ehtiyatları və büdcələri üçün tələblər böyüyüb». O, əhalinin sağlam qocalmasını təmin etmək üçün dünya liderlərini və tibb işçilərini məruzənin tövsiyələrini rəhbər tutmağa çağırıb.



BMT-nin məlumatına görə, 2050-ci ilədək dünyada ahıl insanların sayı iki dəfədən çox artaraq, 841 milyon nəfərdən iki milyard nəfərə çatacaq. Bu əsrin ortalarına doğru dünyada on nəfər yaşlı adamdan təqribən səkkizi daha az inkişaf etmiş regionlarda yaşayacaq.

Ömür müddətinin durmadan artması ən sanballı nailiyyətlərdən, ilk növbədə isə səhiyyə sahəsində ən ciddi problemlərdən biridir. DST-nin başçısı deyib: «Hesab edirəm ki, dünya üzrə qocalma və sağlamlıq haqqında məruzə siyasətçilərin və tibb işçilərinin əhalinin qocalma fenomeni ilə bağlı düşüncələrini dəyişə bilər».

layihə

# 25 milyard dollarlıq proqram

**BMT-nin baş katibi Pan Gi Mun qadınların, uşaqların və yeniyetmələrin sağlamlığının qorunması üzrə qlobal strategiyanın qəbul olunduğunu elan edib.**

Bu təşəbbüsün əsas məqsədi 2030-cu ilədək qadınlar, uşaqlar və yeniyetmələr arasında ölüm faizini minimuma endirmək, habelə onların sağlamlığının və rifahının möhkəmləndirilməsinə kömək etməkdir. Növbəti beş ildə proqramın reallaşması üçün 25 milyard ABŞ dolları sərf olunacaq.

Davamlı İnkişaf üzrə Sammitdə dünya liderlərinin qəbul etdikləri yeni strategiya növbəti 15 il ərzində bu sahədə hədəf və vəzifələrə nail olmağın həyata keçirilməsinin tərkib hissəsidir. Sammitdə iştirak edən dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların və özəl sektorların nümayəndələri, alimlər və BMT-nin digər tərəfdaşları bu təşəbbüsü dəstəkləyiblər.

Pan Gi Mun deyib: «Bu gün mənim qürurla elan etdiyim bu qlobal strategiya yaşamağa qabil və sağlam cəmiyyət qurmaqda kömək edə bilər. Biz sübut etdik ki, tərəfdaşlıq çərçivəsində görülən işlər konkret nəticələr verir. Biz bundan sonra da aramızda olan ən zəif insanların həyatının qorunması və yaxşılaşdırılması üçün əlimizdən gələni edəcəyik».

tam ciddi

# Tüfeyliliyə görə vergi

Belarusda işsiz vətəndaşlardan rüsum alınması planlaşdırılır. Yığımın rəsmən heç yerdə işləməyən, vergi ödəməyən və müvafiq olaraq dövlət xərclərinin maliyyələşdirilməsində iştirak etməyən əmək qabiliyyətli vətəndaşlardan alınması nəzərdə tutulur.

Ödəmə məbləği 20 baza kəmiyyəti (1 baza kəmiyyəti 180 min Belarus rublu və ya təxminən 12 dollardır) təşkil edəcək. İşsizlər bu vergini ildə birdəfəlik ödəməlidirlər, yayınmaya görə inzibati məsuliyyət nəzərdə tutulacaq. Hökumətin mövqeyinə görə, bu rüsumun tətbiqi qeyri-qanuni sahibkarlıq fəaliyyətinin, yəni şəxsin işləyərək vergi ödəmədiyi halların qanuniləşdirilməsi kimi başa düşülməməlidir.

Sənəddə fəaliyyət qabiliyyətinin olmaması və ya başqa səbəblərdən vergidən azad ediləcək vətəndaşların kateqoriyaları da qeyd olunacaq.

faydalı

# Evdə lazım olar:

- Dondurulmuş ətin buzunu mikrodalğalı sobada və ya isti suyun altında açmağa çalışmayın. Bu zaman ət bütün vitaminlərini itirir.
- Kartof püresinə 1 xörək qaşığı sirkə töksəniz, dadı daha xoş olar.
- Göbələyi bişirməzdən əvvəl 1 saat duzlu suda saxlasanız, həm dadı yaxşı olar, həm də bişəndə əzilməz.
- Duxovkada qızardılmış ət qurumasın deyə, onun içərisinə kiçik qabda su qoyun.
- Mürəbbəni paslanmayan qabda bişirmək lazımdır. Əks halda, meyvənin tərkibindəki C vitamini itər.
- Əti qaynadarkən içərisinə bir parça ağac kömürü atsanız, bu, xoşagəlməz iyi götürər və ət tez yumşalar.

**Müdriklər deyib ki...**



*«Bacaran iş görür, bacarmayan ağıl öyrədir».*

*Bernard Şou (1856-1950)*